TƏHSİLƏ AYRILAN PUL GƏLƏCƏYƏ YATIRILAN SƏRMAYƏDİR!



6

# ŞƏRTLƏRİ QALİB LİDER DİKTƏ EDİR!


# Səs

№ 165 (6606) 13 sentyabr 2022-ci il. Qiymәti 60 qәpik




3

# Mətbuat uğrunda "müharibə"




15

Hansı hallarda işəgötürən işçinin maaşından kəsə bilər?



13

Əvəz Zeynallı müxalifətə rəqib, yoxsa həmfikir idi?



11

# Keyfiyyətsiz mallar: uduzan kimdir?





5

AÇIQLANDI: "Yeni məktəbli formalarının alınması məcburi deyil"



16

Qubada dəhşətli yol qəzası: 2 nəfər öldü...



Ermənilər qorxuya düşüb: "Azərbaycan hücuma keçəcək"



# Məktəb açılışı:
## gələcəyə yatırılan sərmayə!

**Prezident İlham Əliyev Binəqədi rayonunda yeni inşa olunan 335 nömrəli tam orta məktəbin açılışında iştirak edib, Saray qəsəbəsində yeni inşa edilən 2 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub**



**Prezident İlham Əliyev Bakının Binəqədi rayonunda yeni inşa olunan 335 nömrəli tam orta məktəbin açılışında iştirak edib. Belə ki, elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi.**

Qeyd edək ki, Binəqədi rayonu ərazisində yerləşən məktəblərdə şagird sıxlığı ilə əlaqədar yeni ümumi təhsil müəssisəsinin tikintisinə zərurət yarandığından Prezident İlham Əliyevin 2019-cu il 30 dekabr tarixli Sərəncamı ilə əhali sıxlığı və məktəb tutumu nəzərə alınaraq bu məktəbin layihəsi hazırlanıb. Tikintisinə 2020-ci ilin noyabrında başlanılan 1600 şagird yerlik məktəbdə 63 sinif, 4 informatika otağı, 2 məktəbə qədər hazırlıq otağı, 5 STEAM otağı, 2 idman zalı, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika kabineti, kimya və biologiya laboratoriyaları, kitabxana, 200 yerlik yeməkxana və 520 nəfərlik akt zalı yaradılıb. Dördmərtəbəli binanın ümumi sahəsi 17 min 254 kvadratmetrdir.



Prezident İlham Əliyev bu təhsil ocağının məktəbəhazırlıq qrupu, fizika kabineti, informatika otağı, kitabxana, idman zalı, kimya laboratoriyası, yeməkxana, çağırışa qədər hərbi hazırlıq otağında, STEAM otaqlarında yaradılan şəraitlə tanış oldu.

STEAM layihəsi birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-2020-ci tədris ilinin əvvəlindən məktəblərimizdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərməklə yanaşı, onlara mühəndislik səriştələri öyrədir.





Prezident İlham Əliyev dünən həmçinin Abşeron rayonunun Saray qəsəbəsində yeni inşa edilən 2 saylı tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub. Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verib.

Bildirildi ki, 1963-cü ildə inşa edilən təhsil ocağı 550 şagird yerlik olmaqla fəaliyyət göstərib. Ərazidə əhalinin sayının artması ilə əlaqədar məktəbə gələn şagirdlərin sayında da böyük artım olub. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikilməsi zərurətə çevrilib. Prezident İlham Əliyevin 2019-cu il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nə əsasən bu məktəbin yenidən inşası da həyata keçirilib. Həmin proqram əsasında 2021-ci ilin yanvarında Saray qəsəbəsində 2000 şagird yerlik yeni məktəb binasının inşasına başlanılıb. Ən müasir və dünya standartlarına uyğun tikilən məktəbin sahəsi 21 min kvadratmetrdir. Yenidən tikilən məktəbdə 70 sinif otağı, 6 laboratoriya, 5 informatika, çağırışaqədərki hərbi hazırlıq kabineti, musiqi, təsviri incəsənət, texnologiya otaqları, həmçinin kitabxana, akt və iki idman zalı, yeməkxana var. Ən müasir avadanlıqla təchiz olunan binada tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şərait yaradılıb. Təhsil ocağında məktəbəqədər iki kabinet də fəaliyyət göstərəcək. Ümumtəhsil müəssisəsində STEAM mərkəzi də qurulub.

Daha sonra dövlətimizin başçısı məktəbdə yaradılan şəraitlə tanış olub. STEAM mərkəzi elektron lövhə, kompüter, 3D printer, müvafiq öyrədici qurğular, elektron komponentlər, dəftərxana ləvazimatları ilə təmin olunub. Burada, həmçinin mühəndis emalatxanası, dron uçuş otağı, təlim, robototexnika otaqları var.

Saray qəsəbəsindəki 2 saylı tam orta məktəbin ən müasir standartlara cavab verən yeni binasının inşası bir daha təsdiqləyir ki, təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər plana uyğun həyata keçirilir. Bütün bunlar, ilk növbədə, şagirdlərin yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.

Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayə deməkdir. Dövlətimiz bu baxımdan hazırda dünyada lider ölkələrdən biridir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müəssisələri ən müasir tədris avadanlığı ilə təchiz edilir. Yeri gəlmişkən, 2022-2023-cü tədris ilində 70-ə yaxın məktəb binası tikiləcək və ya əsaslı təmir edilərək istifadəyə veriləcək. Bu məktəblərdən 30-u modul tiplidir.



# ŞƏRTLƏRİ QALİB LİDER DİKTƏ EDİR!

## İlham Əliyev: "Nə qədər ki, mən Prezidentəm, status olmayacaq"

**Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur.**

Bunu Prezident İlham Əliyev son 19 illik fəaliyyəti, ən vacib məqam isə xalqımızın 30 illik yurd həsrətində olan xalqımız "Dəmir yumruq" siyasəti ilə 44 gün ərzində Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə "Qarabağ Azərbaycandır"ımıza qovuşdu. Dövlət başçısı bütün çıxışlarında, görüşlərində dönədönə vurğulayıb ki, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük.

### Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil

Bəli, bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar. Dövlət başçısı İlham Əliyevin söylədiyi kimi, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, daha da bütövləşdik, daha da mətinləşdik, daha da güclәndik, özümüzü toparladıq və sonunda Zəfər bizim oldu. Bəli, üçtərəfli bəyanatın imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı. Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı, status-kvo, "Dağlıq Qarabağ" adlı ərazi vahidi ləğv edildi. Və beləliklə, bu qələbənin nümayişi 10 dekabr 2020-ci ildə keçirilən Zəfər Paradında bir daha dünyaya göstərildi. Bu Paradla Qarabağ Azərbaycandır! nidasının təntənəsi, "Dağlıq Qarabağın" statusunun olmayacağının Azadlıq meydanında nümayişi, işğalçı Ermənistanın yeni erməni dövlətinin yaradılması planlarının üstündən birdəfəlik xətt çəkməsinin nümayişi idi. Çünki bu gün regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yaranıb, ərazi bütövlüyümüz təmin olunub və heç bir statusdan söhbət gedə bilməz! Bu isə Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur. Bütün bu söylənilənlərdən belə bir qənaətə gəlmək mümkündür ki, "Nə qədər mən Prezidentəm, heç bir statusdan söhbət gedə bilməz!" deyən dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə zaman etməyi yaxşı bildiyini bir daha nümayiş etdirdi. Və "Ermənistanın hünəri varsa, tanısın "Dağlıq Qarabağ respublikası"nı. Ermənistan hakimiyyəti, tanıyın onu. Bu gün tanıyın, tanımırsınızsa, deməli qorxursunuz. Gedin, ağlınızı başınıza yığın!" - bu Azərbaycan Prezidentinin sözü, tələbidir!. Və 2016-cı ildən bu yana Azərbaycanı işğalla barışdırmağın qeyri-mümkünlüyünü idrak etməyiblərsə, onlar fil qulağında yatıb. Qalib Liderimiz, Prezident İlham Əliyevin növbəti mesajı: "Dağlıq Qarabağ respublikası" yoxdur. Qoy, erməni xalqı özünü aldatmasın. Biz bütün qalan şərtləri də rədd edirik, o kağızı da zibil qutusuna atırıq. Ancaq erməni xalqı yaxşı düşünsün, yaxşı fikirləşsin. Əgər onlar bundan sonra da cinayətkarların girovu kimi yaşamaq istəyirlərsə, onda indiki hakimiyyətin ağılsız və təhlükəli addımlarına göz yumsunlar". Yenə də Azərbaycan Prezidentinin nitqindən: "Onlar başa düşməlidirlər ki, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmasa, sülh olmayacaq və onlar özləri peşman olacaqlar. Nə qədər ki, gec deyil, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmalıdır. Bunu beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi tələb edir. Erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır!".

### Azərbaycan bölgədə sülh və sabitliyin təminatçısıdır

Bəli, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Azərbaycan Prezidenti haqlı olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir. İndi şərtləri cənab İlham Əliyev diktə edir: Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın "Qarabağ Ermənistanındır" sərsəm fikrindən sonra xitam verilib. Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdisə, Azərbaycan dövləti də haqq yolunda, Vətən yolunda mübarizə apardığını, erməni hiyləsinin, riyakarlığını, normal dövlət ola bilməməsini bir daha dünyaya nümayiş etdirdi. Bununla bir daha sübut olundu ki, humanitar məqsədə xidmət edən atəşkəslə yanaşı, ehtiyat tədbirləri də paralel aparılmalıdır. Artıq atəşkəs danışıqlarında, digər ikitərəfli, çoxtərəfli platformalarda şərtləri məhz Azərbaycan müəyyən edir. Bu, o deməkdir ki, Azərbaycana qarşı hər hansı şərtlərin irəli sürülməsindən söhbət gedə bilməz və atəşkəs istəyən tərəf beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir.Paşinyan başa düşməlidir ki, monoetnik Ermənistandan fərqli olaraq, multikultural dəyərlərə, tolerantlığa və hər bir xalqın milli-mədəni irsinə hörmət prinsiplərinə sadiqdir. Prezident və Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.

### Revanşistlər nəticə çıxarmasalar, dəmir yumruq işə düşəcək

Belə olan halda, ermənilər anlamalıdırlar ki, sülh onlarını yeganə çıxış yoludur. Və bu gün havadarlarına arxalanaraq ölkəmizi təxribatlara çəkib növbəti müharibə ilə "hədələyən" revanşistlər anlamırlar ki, artıq Azərbaycan bütün gedişlərini kökündən dəyişib və bölgədə baş verən istənilən hadisəyə diqqət yetirir, hər şeyə nəzarət edir. İndi diktəni edən ölkə Azərbaycandır və bölgədə yenidən erməni faşizminin baş qaldırmasına heç vaxt imkan verməz. İstənilən qüvvənin Qarabağda Azərbaycan əsgərinə qarşı edəcəyi təxribat xarakterli əməl cavabsız qalmayacaq. Və bu gün Ali Baş Komandanın bəyanatlarına, sərt xəbərdarlıqlarına əhəmiyyət verməyən ermənilər indi qalib sərkərdənin hər bir fikrini, mesajını diqqətlə izləyir və ona uyğun nəticə çıxarırlar. Yaxşı anlayırlar ki, Prezident İlham Əliyevin dediyi söz imzası qədər keçərlidir. Müharibənin gedişatında hər kəs, bütün Ermənistan buna şahidlik edib: "Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: ""Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!". Bir sözlə, bütün bunlar Azərbaycanın dünyaya nə qədər sülhsevər bir ölkə olduğu bir daha nümayiş etdirir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır.

**RƏFİQƏ HÜSEYNOVA**

# Avro ucuzlaşmaqda davam edir

## SƏBƏBLƏR VƏ TƏSİRLƏR

**Avronun durmadan ucuzlaşmasını müşahidə etməkdəyik və bunun nə qədər davam edəcəyi də hələ bəlli deyil. Bəlli olan odur ki, avro dəyərini itirməkdə davam edir. Artıq avro son günlər 20 il ərzində ilk dəfədir ki, 0,99 dollara mübadilə olunmağa başlayıb. Avropanın böyük bir qrup ölkələrinin ümumi pul vahidi olan avronun beləcə dəyər itirməkdə davam etməsi, sözsüz ki, düşündürücüdür və bu pul vahidinin durmadan dəyərdən düşməsinin səbəbləri, eləcə də müxtəlif istiqamətlərdə təsirsir ötüşüb-ötüşməyəcəyi də maraqlı məqamlardır.**



Doğrudur, avronun beləcə ucuzlaşmaqda, dollara nisbətən dəyərini itirməkdə davam etməsinin bir izahı olmalıdır və var. Yəni, sözsüz ki, bu zamana qədər dollardan baha olan pul vahidinin indi həmin valyutadan da aşağı qiymətə mübadilə edilməsi səbəbsiz ola bilməz. Sözügedən pul vahidinin davamlı olaraq dəyərdən düşməsi, əsasən, Rusiyadan qaz təchizatı məsələsi ilə əlaqələndirilir. Məsələ burasındadır ki, bu fakt yeganə səbəb ola bilməz. Daha dəqiq desək, avronun dəyərdən düşməsinin köklü səbəblərinin olduğu danılmazdır.

Avronun ümumən dəyər itirməsinin ən birinci səbəbi hamıya bəllidir. Bəllidir ki, avronun tədavül edildiyi zonada yüksək inflyasiya var və bu, açıq-aşkar etiraf olunur. Bunu etiraf etməmək də mümkün deyil, çünki bu ilin avqustunda həmin rəqəm növbəti tarixi maksimumuna çatıb və 9,1 faiz səviyyəsində olduğu da bəllidir. Xatırladaq ki, avronun tədavül edildiyi zonada inflyasiya göstəricisi bir ay öncə fəqrli idi, daha dəqiq desək, iyul ayında bu rəqəm 8,9 faiz olub. Onu da diqqətə çatdıraq ki, Avropa Mərkəzi Bankı cəmi 2 faiz inflyasiya proqnozlaşdırmışdı, halbuki real göstərici bundan 4,5 dəfə çox olduğunu təsdiqləyir.

Nəzərə almaq lazımdır ki, enerji dayıcıları sahəsində qiymətlər 38,3 faiz qalxıb. Sözsüz ki, bunun da avronun tədavül edildiyi zonada hansısa təsirlərə səbəb olacağı gözlənilən idi. Yəni, inflyasiyanın ortaya çıxması heç də təsadüfi sayıla bilməz və məhz bu məsələdə enerji daşıyıcılarının qiymətlərində müşahidə olunan artım əhəmiyyətli dərəcədə rol oynayır. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, ilk növbədə inflyasiya enerji daşıyıcılarının qiymətlərinə, daha doğrusu, qiymətlərinin artımına görə belə yüksəlməkdədir.

Ola bilsin, belə bir fikir formalaşa bilər ki, guya enerji daşıyıcılarının qiymətinin bahalaşması, ardınca da inflyasiya, avronun ucuzlaşması təkcə, Rusiya-Ukrayna müharibəsinə görədir. Əslində isə bu belə deyil. Yəni, əvvəlcədən də bütün bunlar üçün zəmin yaranmışdı. Nəzərə almaq lazımdır ki, daşınmalar üzrə zəncir burada əsaslı rol oynayır və həminzəncirin hələ də pandemiyadan əvvəlki vəziyyətə qayıtmadığı günümüzün reallığıdır. Məhz qarşılaşılan təzahürlər də bu reallıq səbəbindəndir və avrozonada qiymətlərin keçən ildən bahalaşmağa başlaması da təsadüfi, yaxud səbəbsiz deyil.

Səbəblərin hansılar olmasından asılı olmayaraq, bu valyutanın ucuzlaşması diqqət mərkəzində saxlanılmalı, ələlxüsus, həmin o pul vahidinin keçərli olduğu Avropanın böyük bir qrup ölkələri ilə qarşılıqlı iqtisadi və ticarət əlaqələrində olan hər bir ölkə üçün bu məsələ daim nəzarətdə olmalıdır. Çünki, təsirlər qaçılmazdır və iqtisadi, eləcə də ticari əlaqələrin qurulduğu ölkənin pul vahidinin ucuzlaşması zamanı müxtəlif təsirlərin olacağı barədə düşünmək məntiqidir, eyni zamanda olduqca vacibdir.

Maraqlıdır, bəs, bunun, yəni avronun dəyərinin aşağı düşməsinin ölkəmizə təsiri varmı? Yaxud, bundan sonra hansısa təsirlər gözləniləndirmi? Avronun dəyəriin aşağı düşməsi manatın dəyərinə hansısa formada təsir edə bilərmi? Bildiyimiz kimi, Azərbaycan manatının dəyəri neftin dünya bazar qiymətləri ilə bilavasitə bağlıdır. Daha dəqiq desək, manatın dəyəri neftin dünya bazarında hansı qiymətə satılmasına əsasən müəyyən olunur. Onu da nəzərə almaq lazımdır ki, neft dünyada ABŞ valyutası, yəni dollar ilə alınıb-satılır və ölkəmizin gəlirləri də əsasən dollarla hesablanır. Deməli, Azərbaycan manatının məzənnəsi də bilavasitə Amerika valyutasına bağlıdır.

Ölkəmizin valyutası, manat ABŞ dollarına bağlı olduğu halda, avronun dəyərini itirməkdə davam etməsi, onun dollara nisbətən qiymətinin aşağı düşməsi manatın dollara nisbətən məzənnəsinə təsir edə bilməz. Əksinə, avronun özünün hətta manatın məzənnəsinə qarşı da ucuzlaşması əvvəlcədən bəlli və gözləniləndir. Avronun manat qarşısında ucuzlaşması isə heç nəyə dəlalət edə və hansısa əhəmiyyət kəsb edə bilməz. Yalnız bir halda əhəmiyyət kəsb edə, özü də müsbət əhəmiyyət kəsb edə bilərdi ki, avronun tədavül edildiyi zonadan gətirilən mallar Azərbaycana ucuz başa gəlsin, amma Avropada inflyasiyanın baş alıb getməsi fonunda bu mümkün olan deyil. Çünki Avropada əvvəla hər bir məhsul bahadır və bahalaşmaqda da davam edir.

Avropadan ərzaq və yaxud digər mallar ölkəmizə gətirilə bilər. Məsələ burasındadır ki, avrozanda ərzaq inflyasiyası özü 10,5 faizdir və deməli, artmaqda davam edir. Digər məhsullarda, eləcə də xidmətlərdə də orta hesabla 4-5 faiz inflyasiya müşahidə edilir. Belə olan halda, avro ucuzlaşsa da, yaxud bahalaşsa da bizim üçün heç bir fərq eləmir və xüsusən Avropanın böyük bir qrup ölkələrinin ümumi pul vahidinin ucuzlaşmasının bizim üçün heç bir əhəmiyyəti yoxdur.

Doğrudur, ölkəmizin maliyyə ehtiyatlarının bir hissəsi avro ilədir. Bu mənada avronun ucuzlaşmasında itkinin heç olmamasından söhbət gedə bilməz. Məhz bu baxımdan itkilərimiz var. Yəni, ölkəmizin maliyyə ehtiyatlarının avro ilə olan hissəsinə görə itkilərimiz danılmazdır. Özü də bunun hələ davam etməsi və nə vaxta qədər davam edəcəyinin bəlli olmaması xüsusilə nəzərə alınmalıdır. Amma bu o demək deyil ki, avronun dəyərinin davamlı şəkildə aşağı düşməsi manatın, Azərbaycanın pul vahidinin məzənnəsinə təsir edə bilər. Belə bir təsir məntiqi deyil. Avronun ucuzlaşmasının ölkəmizə yeganə təsiri yalnız avro ilə olan maliyyə ehtiyatlarımızla bağlı hesab olunur.

Hansısa təsirləri olmasa da belə avronun dəyərinin dollara nisbətən aşağı düşməsi müəyyən suallar doğurur. Ən çox rast gəlinən sual isə, həmin pul vahidinin avronun nə vaxta qədər ucuzlaşacağı ilə bağlıdır. Həqiqətən də, görəsən, avro nə vaxta qədər ucuzlaşacaq? Bir halda ki, Avropa Mərkəzi Bankının tədbirləri heç bir effekt vermir, deməli, bu suala qəti şəkildə doğru cavab vermək çox çətindir. Yəni, avronun nə vaxta qədər ucuzlaşmaqda davam edəcəyini müəyyən etmək olmaz, amma hər bir halda, xüsusən də ABŞ-ın maliyyə tənzimləyicilərinin daha effektiv addımlar atması, eləcə də Amerikanın öz valyutasını əlavə olaraq möhkəmləndirməsi fonunda ilk növbədə Avropada inflyasiya cilovlanmalıdır. Bunun ardınca, yəni inflyasiya cilovlanmasından sonra avronun ucuzlaşması barədə düşünmək olar. Əksini düşünmək belə yanlışlıqdır. Bir sözlə, avronun ucuzlaşması yalnız Avropada müşahidə olunan inflyasiyanın qarşısının alınmasından sonra mümkün görünür. Hər halda, Avropada bu barədə müəyyən işlərin görülməsi planlanmalıdır, çünki bu gedişlə yaxın zamanda avronun dollara nisbətən məzənnəsinin tamamilə aşağı düşəcəyi gözləniləndir. Şübhəsiz ki, bu məqam xüsusilə nəzərə alınır və ümid edirik, sözügedən valyutanın tamamilə dəyərdən düşməməsi üçün tədbirlər işlənib hazırlanır.

***İnam Hacıyev***

# Ruslar Ukraynaya yeni əsgərlər göndərmir-Niyə?

Bunu artıq Ukrayna saytları yazır...

...Belə ki, onların yazdığına görə, Rusiya Federasiyasının hərbi komandanlığı yeni, artıq formalaşmış birləşmələrin Ukrayna ərazisinə göndərilməsini dayandırıb. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının xülasəsində məlumat verilib.

Maraqlıdır ki, Ukrayna saytları Rusiya rəhbərliyinin bu əməlini "formalaşmış rus birləşmələrinin" öz rəhbərliyinə göstərdiyi etimadsızlıq, ümumiyyətlə rus əsgərləri arasında çoxlmaqda olan fərariliklə əlaqələndirirlər.

Ukrayna saytlarının yazdığına görə, bundan əlavə, vəziyyətə ölənlərin faktiki sayı ilə bağlı məlumatlar təsir edir, özəl hərbi şirkətlər və müvəqqəti işğal olunmuş ərazilərdən səfərbər olunanların itkiləri nəzərə alınmır. Yaralılara ümumi münasibət səbəbindən vəziyyət daha da pisləşir. Xüsusilə, Rusiya xəstəxanalarında diaqnozlar və döyüşün xarakteri qəsdən sadələşdirilir.Hərbçilərin tez döyüş bölgəsinə qayıtması üçün xəsarətlər, reabilitasiyaya vaxt yoxdur.

...Bu arada verilən digər xəbərə görə, Ukrayna Silahlı Qüvvələrinin yaxınlaşması səbəbindən ruslar "ehtiyat" əsgərlərini Xersona köçürdükləri deyilir.

***Ağasəf Babayev***





# Keyfiyyətsiz mallar: uduzan kimdir?

ARAŞDIRMA

**Keyfiyyət bu gün müəssisələr tərəfindən strateji anlayışa çevrilsə də, istehlakçıların seçimlərini müəyyən edən əsas amillərdən biridir. Keyfiyyət anlayışı standartlara uyğunluq kimi qəbul edilir. Lakin bu gün vəziyyət bir qədər fərqlidir.**

Keyfiyyətlə bağlı verilən bəzi təriflərə nəzər salaq:

* Keyfiyyət müştərinin məhsul və ya xidmətdən məmnunluq səviyyəsidir.

* Keyfiyyət müştərinin istədiyi şeydir.

* Keyfiyyət əmtəənin və ya xidmətin müştəri gözləntilərinə və tələblərinə cavab vermək qabiliyyətidir.

* Keyfiyyət mükəmməl məhsulun yaradılmasıdır.

* Keyfiyyət, insanların səhvsiz performans göstərməsidir.

* Keyfiyyət hər cür səhvlərin aradan qaldırılmasıdır.

* Keyfiyyət arzu olunan spesifikasiyalara uyğunluqdur.

* Keyfiyyət standartlara uyğunluqdur.

Nəticədə, ən ümumi mənada keyfiyyət "müştəri tələblərinin ödənilməsi, xərclərin azaldılması və s. deməkdir. Bu, müxtəlif məqsədlər üçün istifadə edilən strateji idarəetmə vasitəsidir. Məhsulun keyfiyyəti istehlakçı ehtiyaclarını ən qənaətcil səviyyədə qarşılamağa yönəlməlidir.

Məhsulun keyfiyyətini göstərən komponentlər:

1. Performans: Məhsulun əsas xüsusiyyətlərindən biri məmnunluqdur.

2. Özəlliklər: Məhsulun əsas xüsusiyyətlərini müəyyən edən ikinci dərəcəli xüsusiyyətlərdir. Məsələn, avtomobilin soyutma sistemi, əyləc sistemi.

3. Etibarlılıq: Məhsulun müəyyən müddət ərzində sıradan çıxmaması və ya yaxşı işləməsi qabiliyyəti. Məhsulun performans xüsusiyyətlərinin davamlılığı.

4. Davamlılıq: Məhsulun istifadə oluna biləcəyi müddət. Buraya həm texniki, həm də iqtisadi ölçülər daxildir.

5. Uyğunluq: Məhsulun dizaynı və istismarının əvvəlcədən müəyyən edilmiş standartlara, sənədlərə və ya istifadəçilərin gözləntilərinə uyğunluğu.

6. Xidmətin mövcudluğu: Məhsulun təmirində göstərilən sürət, nəzakət, təcrübə və asanlıq. Problem və şikayətlərin asan həlli.

7. Estetik: Məhsulun cəlbediciliyi və onun hisslərə (görünüş, qoxu, dad) müraciət etmə qabiliyyəti.

Keyfiyyətdə olduğu kimi, xidmət keyfiyyəti də çoxölçülüdür. Buna görə də xidmət keyfiyyətinin dəqiq və aydın tərifi yoxdur.

Xidmət keyfiyyəti 10 komponentdən ibarətdir. Bu komponentlər aşağıda verilmişdir:

1. Etibarlılıq: Performans ardıcıllığı ehtiva edir. Bu o deməkdir ki, verilən vədlərə uyğun olaraq xidmət etibarlı və düzgün şəkildə həyata keçirilir.

2. Həssaslıq: Bu, işçilərin dərhal müştərilərə xidmət göstərməyə və kömək etməyə hazır olması deməkdir. Buraya xidmətin vaxtında verilməsi daxildir.

3. Bacarıq: Bu, həm firmanın, həm də işçi heyətin xidmət göstərmək üçün lazımi bilik və bacarıqlara malik olması deməkdir.

4. Əlçatanlıq: Bu, əlçatan olmaq və ələqələr qurmaq asanlığını ehtiva edir. Bu, xidmətə asan çıxış, qısa gözləmə müddəti və rahat fəaliyyət saatları deməkdir.

5. Nəzakət: Buraya müştəri ilə münasibətdə olan personalın nəzakəti, ləyaqəti və dostluğu daxildir.

6. Ünsiyyət: Müştərilərin başa düşə biləcəyi dildə məlumatlandırmaq və onları dinləmək deməkdir. Firma öz dilini müxtəlif müştərilər üçün uyğunlaşdırmağı və fərqləndirməyi bacarmalıdır.

7. Reputasiya: Buraya etibarlılıq, etibarlılıq, dürüstlük və müştəri maraqlarının səmimi hissi daxildir. Şirkətin adı, onun reputasiyası, işçilərinin şəxsi xüsusiyyətləri reputasiyanı təşkil edən elementlərdir.

8. Təhlükəsizlik: Şübhə, təhlükə və riskdən azad olmaq. Fiziki və maliyyə təhlükəsizliyi və məxfilik təhlükəsizliyi təşkil edən elementlərdir.

9. Müştərini Tanımaq və Anlamaq: Müştərini və onun ehtiyaclarını bilmək üçün səy göstərməyi ehtiva edir.

SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib.

**AİB sədri Eyyub Hüseynov:**





"Keyfiyyətsiz mal dünyanın bütün ölkələrində var. Kapitalizm və hər şeydən pul çıxarmaq cəmiyyətində kim nə istəsə alar- satar. Əlbəttə, belə bir cəmiyyətdə istehlakçıların aldadılması da daim nəzərdən keçirilir. İstehsalçılar, zavodlar, fabriklər tərəfindən istər sənaye, istərsə də ərzaq malları olsun daim diqqətdə saxlanılır ki, istehlakçını müəyyən yollarla aldadıb ondan pul qoparılsın və guya "qara cümə" deyilən biznes qurumlarının yalançı ağlaşma günü də elə onlardan biridir. Əslində, heç bir "qara cümə"dən söhbət getmir. Söhbət istehsalçıları aldadıb keyfiyyətsiz malları da onlara sırıyıb çoxlu pul qazanmaqdan gedir. Burada reklam və endirim kampaniyaları hamısı istehlakçını aldatmağın tərkib hissələridir. Lakin keyfiyyətsiz mal istehsal yerindən istehlakçının evinə çatana kimi müəyyən zəncir keçir. Ola bilsin ki, keyfiyyətsiz mal topdansatış bazasını bankrot etsin. Yaxud keyfiyyətsiz mal istehlakçını bankrot edib bazardan çıxartsın və ən nəhayət, keyfiyyətsiz mal istehlakçının həyatına son qoysun. Əgər o birilər bankrot olursa, pulları itirirsə, istehlakçı isə keyfiyyətsiz maldan canını təhvil verir. Bu alqoritm dünyanın bütün ölkələrində mövcuddur və doğma Azərbaycanımızdan da yan keçməyib.

Hökumətlər, cürbəcür qurumlar guya standartlar yaradırlar, yaxud malların keyfiyyətini yüksəldirlər. Bunların hamısının arxasında, əsasən də, istehlakçının ciddi sağlamlığı yox, istehlakçının ölmədən mal alma imkanının mövcud olması və malların bazarda irəliləməsi üçün olan şeylərdir. Sənaye üsulu ilə hazırlanan bütün ərzaq mallarına istehlakçı üçün zərərli olan kimyəvi maddələr qarışdırılır. Heç bir normativ sənəd də tapmaq olmaz ki, bu maldan nə qədər istehlakçı istehlak etsə, həyatını dəyişə bilər və yaxud da zəhərlənər. Bütün malların və xidmətlərin son ünvanı olan biz istehlakçılar, əslində, həm də keyfiyyətsiz malların ünvanıyıq və keyfiyyətə nəzarət edən cürbəcür qurumlar, cürbəcür standartlar əslində, bütün mahiyyəti malı bazarda saxlamaq və istehlakçıya çatdırmaq üçün səmərəli üsulların axtarılması və istehlakçının tikəsi əlində zəhərlənməməsinə xidmət edir.

Çox yaxşı haldır ki, ölkəmizdə Qida Təhlükəsizliyi Agentliyi yaradılıbdır. Bu agentlikdən cəmiyyətimiz və Azərbaycan istehlakçılarının çox böyük gözləntiləri var. Lakin AQTA öz əsasnaməsində hədəfə götürülmüş nöqtələrə çatmağa hələ çox uzun illər lazımdır. Bu məsələdə, əlbəttə, AQTA-nın istehlakçılarla səmərəli işləməsi, istehlakçıları ayıltması, istehlakçıları təhlükəli, keyfiyyətsiz mala tələbat yaratmaması üçün müəyyən işlər aparması üçün önə çəkilir.

Qida Təhlükəsizliyi Agentliyinin mühüm çatışmayan cəhətlərindən biri budur ki, siz jurnalistlərin əməyini izləyə bilmir və yaxud da izləmək istəmir. Siz qarışqa kimi axtarış aparırsız, biz gündəlik media materialından təhlükəli mallar barədə məlumatlar alırıq. Lakin AQTA bu ağır əməyi təqib etmir. Baxmayaraq ki, mən dəfələrlə bu məsələni qaldırmışam, lakin biz hələ buna nail ola bilməmişik. Baxmayaraq ki, Cənab Prezident öz ictimai çıxışlarında jurnalistlərlə görüşdə demişdir ki, "Mən bir çox məsələləri kütləvi informasiya vasitələrindən alıram". Lakin dövlət orqanları nə üçün Cənab Prezidentin dediyi kimi etmirlər. Ondan bir nəticə götürmürlər. Bunlar hamısı cəmiyyətin problemləridir ki, təhlükəli və keyfiyyətsiz mallar jurnalistlər tərəfindən müəyyən qədər araşdırılır. Lakin müvafiq dövlət orqanları onları tənqid etmir. Bu, çatışmayan cəhətlərdən biridir.

Bir sözlə, keyfiyyətsiz maldan xeyir götürənlər də var. Bundan xeyir götürənlər dərman, həkim biznesi, klinikalardır və s.

İstehlakçılar dərk etməlidirlər ki, onların sağlam və uzun yaşaması özlərinə lazımdır. Hər şey bazar və pul qazanmaq üçündür. Ona görə hər bir insan özünü qorumaq üçün müəyyən təşəbbüs göstərməlidir".

**İqtisadçı deputat Vüqar Bayramov:** "Ümumiyyətlə, bazarda keyfiyyətsiz mallara qarşı mübarizənin gücləndirilməsi çox vacibdir və praktik olaraq istehlak bazarına



məsub olan qurumunun da əsas funksiyası məhz keyfiyyətsiz məhsulun bazara daxil olmasının qarşısını almaqdır. Amma təbii ki, istehlak bazarının keyfiyyətsiz məhsullarına rast gəlinir.

Keyfiyyətsiz məhsullara qarşı mübarizənin gücləndirilməsi vətəndaşların və istehlakçıların hüquqlarının qorunması baxımından vacibdir. Ona görə birmənalı şəkildə keyfiyyətsiz məhsullara qarşı mübarizə prioritetdir və məqsəd də istehlakçıların hüquqlarının qorunması və keyfiyyətsiz məhsulların bazara daxil olmasının qarşısını almaqdan ibarətdir".

***Ayşən Vəli***

# TƏHSİLƏ AYRILAN PUL GƏLƏCƏYƏ YATIRILAN SƏRMAYƏDİR!

## İlham Əliyev: "Azərbaycan uğurla neft kapitalını insan kapitalına çevirir"






Qeyri-neft sektorundan əldə olunan gəlirlər insan kapitalının inkişafına yönəldilməklə Azərbaycanın iqtisadi tərəqqisi və davamlı inkişafına etibarlı zəmin yaradır. Azərbaycanın neft strategiyasının başlıca hədəfləri həmişə ölkənin iqtisadi yüksəlişinə təkan verməkdən və sosial islahatların davamlı olaraq miqyasının genişləndirilməsinə baza yaratmaqdan ibarət olub. Dövlət başçımız praqmatik lider kimi neftdən əldə olunan gəlirlərin, ilk növbədə, ölkədə güclü insan kapitalının formalaşdırılmasına yönəldilməsinin vacib olduğunu cıxışlarında dəfələrlə vurğulamışdır. Müasir dövrdə hər bir xalqın, dövlətin taleyini təkcə onun malik olduğu zəngin təbii sərvətlər deyil, həm də elmi-mədəni və intellektual imkanları və bütün bunların fövqündə dayanan insan kapitalı müəyyənləşdirir. Azərbaycan da öz inkişafını, ancaq təbii sərvətlərin gətirdiyi mənfəətə bağlamır, resurslarını insan faktorunun inkişafına yönəldir. Prezident İlham Əliyevin elm və təhsil sahəsində həyata keçirdiyi davamlı islahatlar da, məhz insan kapitalına əsaslanan informasiyalı cəmiyyətin formalaşmasına zəmin yaratmaq məqsədi daşıyır.

### ”MƏNİM TƏŞƏBBÜSÜMLƏ AZƏRBAYCANDA QARA QIZILI İNSAN KAPİTALINA ÇEVİRMƏK PRİNSİPİ ƏSASINDA İSLAHATLAR APARILIR”

Müasir dövrümüzdə ölkəmizdə bütün sahələrlə paralel olaraq, təhsil sahəsində köklü islahatlar aparılır, təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Azərbaycan Prezidenti İlham Əliyev cıxışlarının birində son illərdə bu sahədə çox böyük işlərin görülməsini və təhsil sahəsinin daim diqqət mərkəzində olmasının təbii hal olduğunu bildirib: ”Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır. ... Mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır”.

Bildiyimiz kimi, ümumtəhsil məktəblərinin təmir-tikinti işləri son illərdə davamlı olaraq həyata keçirilir və bu, təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Son illərdə çoxlu sayda yeni məktəb binasının və korpusların inşası, mövcud təhsil müəssisələrinin yüksək səviyyədə yenidən qurulması, onların zəruri tədris avadanlığı ilə təchiz olunması təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Şəhərimizin hər bir yerində məktəblər tikilir, əsaslı təmir olunur, bu proqram uğurla icra edilir. Bu məktəbin yenidən tikilməsi bizim siyasətimizi əks etdirir. Təhsil sahəsinə göstərilən diqqət, eyni zamanda, infrastrukturun yaranmasında da özünü əks etdirir”.Bildiyimiz kimi, bu günlərdə Prezident İlham Əliyev Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub. Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksi də müasir standartlara uyğun olaraq tikilib. Cənab Prezidentin Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olması məhz təhsilimizə ayrılan diqqətdir. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

Görülən işlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Saray qəsəbəsində yeni inşa edilən 2 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub. 1963-cü ildə inşa edilən təhsil ocağı 550 şagird yerlik olmaqla fəaliyyət göstərib. Ərazidə əhalinin sayının artması ilə əlaqədar məktəbə gələn şagirdlərin sayında da böyük artım olub. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikilməsi zərurətə çevrilib. Prezident İlham Əliyevin 2019-cu il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nə əsasən, bu məktəbin yenidən inşası da həyata keçirilib. Həmin proqram əsasında 2021-ci ilin yanvarında Saray qəsəbəsində 2000 şagird yerlik yeni məktəb binasının inşasına başlanılıb. Ən müasir və dünya standartlarına uyğun tikilən məktəbin sahəsi 21 min kvadratmetrdir. Yenidən tikilən məktəbdə 70 sinif otağı, 6 laboratoriya, 5 informatika, çağırışaqədərki hərbi hazırlıq kabineti, musiqi, təsviri incəsənət, texnologiya otaqları, həmçinin kitabxana, akt və iki idman zalı, yeməkxana var. Ən müasir avadanlıqla təchiz olunan binada tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şərait yaradılıb. Təhsil ocağında məktəbəqədər iki kabinet də fəaliyyət göstərəcək. Ümumtəhsil müəssisəsində STEAM mərkəzi də qurulub. Daha sonra Prezident İlham Əliyev Bakının Binəqədi rayonunda yeni inşa olunan 335 nömrəli tam orta məktəbin açılışında iştirak edib.

Tikintisinə 2020-ci ilin noyabrında başlanılan 1600 şagird yerlik məktəbdə 63 sinif, 4 informatika otağı, 2 məktəbə qədər hazırlıq otağı, 5 STEAM otağı, 2 idman zalı, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika kabineti, kimya və biologiya laboratoriyaları, kitabxana, 200 yerlik yeməkxana və 520 nəfərlik akt zalı yaradılıb. Dördmərtəbəli binanın ümumi sahəsi 17 min 254 kvadratmetrdir. Qeyd edək ki, STEAM layihəsi Birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-2020-ci tədris ilinin əvvəlindən məktəblərimizdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərməklə yanaşı, onlara mühəndislik səriştələri öyrədir.




### DÖVLƏTİN TƏRƏQQİSİ VƏ GƏLƏCƏYİ ONUN TƏHSİL SƏVİYYƏSİ İLƏ BAĞLIDIR

Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayə deməkdir. Dövlətimiz bu baxımdan, hazırda dünyada lider ölkələrdən biridir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müəssisələri ən müasir tədris avadanlığı ilə təchiz edilir. Yeri gəlmişkən, 2022-2023-cü tədris ilində 70-ə yaxın məktəb binası tikiləcək və ya əsaslı təmir edilərək istifadəyə veriləcək.Əlbəttə ki, görülən işlər bir daha təsdiqləyir ki, təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər plana uyğun həyata keçirilir. Bütün bunlar, ilk növbədə, şagirdlərin yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.

Beləliklə, növbəti məktəbin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür. Ümumiyyətlə, istifadəyə verilən müasir standartlara cavab verən təhsil müəssisələrində informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəblərdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil müəssisələrinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.Göründüyü kimi, zəngin təbii sərvətləri olan Azərbaycanda, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir.

***Zümrüd BAYRAMOVA***



# Azərbaycan idmanına CƏMİYYƏTİN BAXIŞI NECƏDİR?

Azərbaycan xalqının tarixi qədim olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafı da uzaq keçmişdən başlanır. Son zamanlarda Azərbaycan idmanında müəyyən irəliləyişlər hiss olunur. Demək olar ki, idmançılarımızın həm fərdi, həm də komanda oyunlarında göstərdikləri nəticə hər birimizi qürurlandırır. Güləş, cüdo, futbol və s. digər idman növlərində olan uğurlarımız Azərbaycan idmanının inkişafına təkan verir. Bəs insanlar Azərbaycan idmanı deyərkən nə başa düşür? Onlar üçün ən yaxşı inkişaf etmiş idman növümüz hansıdır? Hələ də bu sahədə hansı boşluqlar var? Bütün bunlara cavab tapmaq məqsədi ilə SİA şəhər sakinləri arasında sorğu keçirib.

**Şəhər sakini Fazil Əsgərov:** "Mən idmanımızı çox yaxından izləyirəm. Bugünkü gün Azərbaycan idmanı deyərkən yada güləş, cüdo, futbol idman növləri düşür. Son zamanlar adını qeyd etdiyim idman növləri



yüksək səviyyədə inkişaf edir. Güləşdə əldə etdiyimiz nailiyyətlər çox yaxşıdır. Azərbaycan futbolunda müəyyən boşluqlar var. Lakin ümid edirəm ki, bu boşluqlar da zaman keçdikcə öz yerini tapacaq".

**Şəhər sakini Xəyal Əliyev:** "Fərdi idman növlərində Azərbaycan idmanı çox



yüksək səviyyədədir. Lakin komanda oyunlarındakı çıxışlarımız ürəkaçan deyil. Təbii ki, burada maddi səbəbdən söhbət gedə bilməz. Çünki indiki zamanda klublara yetərincə pul ayrılır. Hər bir idmançı öz üzərində yetərincə çalışsa, düşünürəm ki, idmanımız bir o qədər inkişaf edər".

**Şəhər sakini İsrafil Bəkirov:** "Azərbaycan idmanı çox yüksək səviyyədə inkişaf



edir. Komanda oyunlarımızda müəyyən nailiyyətlərimiz olsa da, ənənəvi oyunlarda isə əldə etdiyimiz qələbələr daha çoxdur. Buna dünən cüdo idman növündə çıxış edən idmançılarımızın qələbəsini misal göstərmək olar. Cüdo Federasiyasına bildiyiniz kimi Rəşad Nəbiyev rəhbərlik edir. Onun rəhbərliyi altında fəaliyyət göstərən bu Federasiyanın fəaliyyəti olduqca təqdirəlayiqdir. Son zamanlar boks idman növündə bir az zəiflik müşahidə olunur. Düşünürəm ki, boksçular da öz üzərlərində işləsə daha yaxşı nəticələr əldə edə bilərlər. Onu da qeyd etmək istərdim ki, Azərbaycanın Zabit Səmədov kimi döyüşçüləri var".

**Şəhər sakini Ümid Kərimov:** "Mən ölkə klubları arasında "Qarabağ" komandasına azərkeşlik edirəm. Düşünürəm ki, yerli ko-



mandalar içərisində ən yaxşı oynayan klublardan biridir. Lakin ümumi vəziyyətə baxdıqda bir sıra boşluqlar var. Bu boşluqların əsas səbəbi futbolçularımızın öz üzərində işləməməsidir. Dünyaca məşhur futbolçu Ronaldo milyonçu olsa belə, hər zaman öz üzərində işləyərək təcrübə əldə edir. Lakin bizim idmançılar bir az pul qazanan kimi hər şeyi unudurlar. Ancaq belə olmamalıdır. Bu kimi hallar baş verməsə futbol idman növü daha yaxşı inkişaf edər. Fərdi idman növlərindən olan güləşdə isə nəticələr hər zaman bizi sevindirir. Güləş üzrə olan nailiyyətlərimiz hər zaman yüksək olub. Bu hal da bizi hər zaman qürurlandırır".

**Şəhər sakini Gülər Əhmədova:** "Fikrimcə, ölkəmizdəki idman sahəsi getdikcə



inkişaf edir. Dünya ölkələrində keçirilən yarışlarda idmançılarımızın yüksək nəticə əldə etməsi bir vətəndaş kimi məni hər zaman sevindirir. Sonuncu olaraq Zabit Səmədovun döyüşünü izlədim. Onun vida döyüşü olsa belə, bir idmançı olaraq hər zaman bayrağımızı yüksəklərdə dalğalandırıb. İnanıram ki, belə idmançılarımızın sayı getdikcə artacaq. Həmçinin, bu kimi qələbələrimiz olduqca gənclərimizdə idmana olan marağı çoxalacaq".

**Şəhər sakini İmran Qədirov:** "Azərbaycan idmanı son 20 ildə çox yüksək səviyyədədir. Ümumilikdə idman ölkədə yox səviyyəsində idi. İlk növbədə, idmanın uşaqlar arasında inkişaf etməsi üçün müəyyən proqramlar hazırlanmalıdır. Bir zamanlar məhəllə futbolu ilə bağlı veriliş hazırlansa da, yarımçıq qaldı. Ölkədə idmanın inkişafı



üçün bölgələrdə idman zalları açılmalıdır. Dağ rayonlarında yaşayan elə bir istedadlı gənc ola bilər ki, onun üzərində işləyib idmana cəlb etmək üçün müəyyən seleksiya işləri aparılmalıdır. Türkiyədə belə idman məktəbləri çoxdur. Lakin ölkədə belə məktəblərin sayı maksimum 2 ola bilər. Həmçinin idmanın inkişafı üçün müəyyən sponsorlor olmalıdır".

***Banuçiçək Hüseynli***



## ABŞ Qarabağı minalardan təmizləmək üçün 2 milyon dollar ayırdı

**Amerika Birləşmiş Ştatları (ABŞ) Qarabağ müharibəsində Ermənistan və Azərbaycan qüvvələri arasında intensiv toqquşmaların baş verdiyi bölgələrdə minalardan təmizləmə fəaliyyətləri üçün 2 milyon dollar yardım edəcəyini açıqladı.**

SİA-nın əldə etdiyi məlumata görə, ABŞ Dövlət Departamentindən verilən yazılı məlumatda bildirilir: "Birləşmiş Ştatlar 2020-ci ilin payızında Ermənistan və Azərbaycan qüvvələri arasında gedən intensiv döyüşlərdən zərər çəkmiş ərazilərdə Cənubi Qafqazda minatəmizləmə əməliyyatları üçün regional sülh və əməkdaşlığı təşviq etmək üçün 2 milyon dollar yardım elan etməkdən məmnundur. Münaqişə zonasında minalar və partlamamış hərbi sursatlar dinc əhalini öldürməyə və şikəst etməyə davam edir, iqtisadi inkişafa mane olur və yerli əhalinin təhlükəsiz qayıtmasına mane olur.

Veriləcək yardım ABŞ-ın 2021-ci ilin noyabr ayında açıqladığı 500 min dollarlıq yardımın davamıdır. ABŞ-ın yeni maliyyə dəstəyi minalardan təmizləmə agentliklərinin ölümcül minaları və partlamamış hərbi sursatları təmizləmək üçün texniki imkanları gücləndirəcək. Bu səylər insan təhlükəsizliyinin artırılmasında və didərginlərin öz evlərinə qayıtmasında və həyatlarını əmin şəkildə bərpasında mühüm rol oynayır."

Qeyd edək ki, sözügedən yardımın minalardan təmizləmək üçün hansı ölkə və dəqiq olaraq hansı bölgələrdə istifadə olunacağı, hansı təşkilatlara yönəldildiyi yazılmayıb.



# Vərəmsiz həyat...

**Vərəm yer üzərində geniş yayılmış xroniki infeksion xəstəlikdir, dünyada ən təhlükəli infeksiyalardan biri olaraq qalmaqdadır və əsasən əhalinin əmək qabiliyyətli hissəsini sıradan çıxarır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən hazırda dünyada 20 milyondan artıq vərəm xəstəsi vardır və bunların 7 milyonu açıq formalı vərəmdir. Hər il 3,5 milyon insan vərəmlə xəstələnir və 1 milyon insan bu xəstəlikdən ölür. Hər dəqiqə isə təxminən 2 insan vərəmdən dünyasını dəyişir.**

XX əsrin əvvəllərində insan ölümlərinin 20 faizi vərəmdən baş verirdi. Epidemioloji vəziyyət ağır olan ölkələrdə vərəm xəstəliyindən ölənlərin 75 faizi əmək qabiliyyətli, yəni 15-50 yaşlarda olan insanlardır.

Təəssüf ki, bu xəstəlik ölkəmizdən də yan ötməmiş, zaman-zaman insanlar arasında vərəmə yoluxma halları müşahidə olunmuşdur. Lakin vərəmin bir bioloji faktor olduğunu və ona sosial həyatın təsirini nəzərə alsaq, müstəqilliyimizin bərpasından sonra sosial rifahın yüksəlməsi bu xəstəliyin dinamikasında azalma ilə nəticələnmişdir. Belə ki, 2010-cu ildə 100 min əhaliyə 53 xəstə, 2014-cü ildə 100 min əhaliyə 43,5 xəstə, 2016-cı ildə 100 min əhaliyə 38,9 xəstə olub. Yeni hallar arasında sağalma 83 faiz, təkrar hallar arasında sağalma isə 73 faiz olub.

Ölkəmizdə bu xəstəliklə mübarizə həmişə dövlətimizin diqqət mərkəzində olmuş, bunun üçün əsaslı tədbirlər həyata keçirilmişdir. "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" 2 may 2000-ci il tarixdə qəbul olunan Azərbaycan Respublikası Qanunu əhalinin vərəmdən mühafizəsinin təşkilati-hüquqi əsaslarını, vərəm xəstəliyinə tutulmuş şəxslərin hüquq və vəzifələrini müəyyən edir. Sonrakı illərdə edilmiş əlavə və dəyişikliklər Qanunu daha da təkmilləşdirmiş, onu xəstəliyin aradan qaldırılmasında istinad olunan mühüm dövlət sənədinə çevirmişdir.





Təhlil

## Bioloji faktora sosial rifahın təsiri

Mütəxəssislər bu qənaətdədirlər ki, vərəm xəstəliyi əsrlər boyu epidemiya halını almış, müxtəlif ölkələrdə geniş yayılaraq çoxsaylı insan tələfatına səbəb olmuşdur. Lakin vərəm epidemiya deyil, sadəcə olaraq infeksion xəstəlikdir, həm də genetik daşıyıcılığa malikdir. Bu, məsələnin bir tərəfidir. Digər tərəf isə onlarla suala cavab axtarır. Gəlin görək vərəm xəstəliyi hansı mühitdə daha da aktivləşir, hansı şəraitdə onun genetik daşıyıcılığı fəallaşır və əksinə, müalicəsi, azalması mümkün olur.

Məlumdur ki, 90-cı illərdə 15 müttəfiqdən biri olan ölkəmizin sovet imperiyasından ayrılması, ölkədə yeni dövlət quruluşunun olmaması xalqı böyük iqtisadi çətinliklərlə üz-üzə qoymuşdu. Həmin dövrdə idarəetməni ələ keçirən səriştəsiz insanların bacarıqsızlığı nəticəsində çoxsaylı müəssisə, fabrik və zavodların fəaliyyəti tənəzzülə uğramış, bütün bunlar isə insanların həyatına təsirsiz ötməmişdir. O illərin canlı şahidləri çörək və digər gündəlik ərzaq məhsulları, eyni zamanda rayonlarda neft, solyarka üçün saatlarla mağazaların qarşısında sırada qaldıqlarını yaxşı xatırlayarlar.

Ölkə iqtisadiyyatı tamamilə tənəzzülə uğramış, insanlar gündəlik tələbatları olan ərzaqları xüsusi "çeklə" almaq məcburiyyətində qalmışdılar. Bütün bunlar isə şəhərlərimizdən çox kəndlərimizdə yaşayan insanların həyatını alt-üst etmiş, onların soyuqda qalmasına, çox aşağı səviyyədə qidalanmasına səbəb olmuşdu. Nəzərə alsaq ki, kəndlərdə qaz, elektrik enerjisi problemi yaşanırdı, onda yaxşı anlamaq olar ki, insanlar hansı çətinliklərlə üz-üzə idilər. Onlar soyuq, qaranlıq evlərdə yaşamağa məhkum olmuşdular. Hələ gəl, gör ki, bu şəraitdə evində də bir xəstən ola. O da vərəmli xəstə. Belə bir atalar sözümüz də var: Var evi kərəm evi, yox evi vərəm evi. Bu atalar sözü elə, sanki o vaxt üçün deyilmişdi. Yoxluq hər evə hakim kəsilmiş, kasıblıq hər kəsin bəlasına çevrilmiş, xəstələrin sonunu gətirmişdi.

Belə bir şəraitdə vərəm xəstəliyi artmaya bilərdimi? Evlərdəki şəraitsizlik, su, kanalizasiya sisteminin olmaması, soyuq, rütubət, üstəgəl də, ərzaq qıtlığı, ən dəhşətlisi isə tapa bildiyimiz ərzağın belə, mənşəyinin bilinməməsi həyat üçün çox təhlükəli idi. Həmin dövrdə isə, necə deyərlər, məqam axtaran vərəm xəstəliyi yoxsulluqdan əziyyət çəkən insanların qapısını döyüb asanlıqla həyatlarına daxil olurdu. Bu çağırılmamış qonaq yaranmış şəraitdən istifadə edərək aktivləşir, vərəmli xəstələrin sayının artmasına səbəb olurdu.

Ölkəmizdə sosial problemlərin, o cümlədən yoxsulluq probleminin həlli istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" xüsusi əhəmiyyətə malik olmuşdur. Həmin Dövlət Proqramının həyata keçirilməsi nəticəsində 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə endirilmişdir. Sonrakı illərdə bu istiqamətdə nailiyyətlər daha da artırılmış və 2007-ci ilin axırına yoxsulluq səviyyəsi 15,8 faiz təşkil etmişdir.

Bu sahədə qəbul olunan Dövlət Proqramının davamı olaraq "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı isə yoxsulluqla mübarizədə yeni bir mərhələ oldu. Bu proqramlar yoxsulluq probleminin həlli istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaratmış, nəticədə ölkədə yoxsulluq səviyyəsi 2001-ci ildəki göstəricisindən 10 dəfə azalmışdır.

Son illər ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadi artımın davamlılığı təmin edilmiş, əhalinin gəlirlərinin artırılmasına və rifahının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına nail olunmuşdur. Bu isə təbii ki bioloji faktor olan vərəmə qarşı mübarizədə də ən gözəl silah olmuş və əhalinin sosial rifahının yaxşılaşması ilə xəstəlik azalmağa doğru yola çıxmışdır.





## Gün düşən evə həkim girməz

Bəli, hələ həkim-təbibin qıt olduğu illərdə ata-babalarımız "gün düşən evə həkim girməz" demişlər. Bu kəlamlarda böyük və ibrətamiz məna var. Elə bu səbəbdən də onlar ev tikib binə olanda gün düşən yerləri seçirdilər ki, evlərinə gün düşsün, həkim girməsin. Bütün dövrlər üçün aktual olan bu kəlama gəlin görək necə riayət edirik?

Lakin sonralar gün məsələsinə bir o qədər fikir verən olmadı. İnsanlar harada gəldi ev tikməyə başladılar. Hətta bir-birinin içərisinə açılan otaqlar oldu ki, onlara günün heç bir vaxtı gün dəymədi.

Qədimdənqalma-düz torpağın üstündən tikilən, yəni daşla, kərpiclə heç qaldırılmayan evlər var ki, onlar həmişə rütubətli olur. Bu cür evlər çox təhlükəlidir. Əgər belə evlərdə vərəm xəstəsi və yaxud bu xəstəliyə meylli olan sakinlər varsa, bu, onların vəziyyətinə təbii ki, pis təsir göstərəcəkdir.

Vərəm xəstəliyinin yaranmasının əsasında rütubət, antisanitariya, oksigen azlığı dayanır. Bu səbəbdən də belə xəstələr bu məqamlara diqqətlə yanaşmalı, dərhal belə evlərdən uzaqlaşmalı, gün düşən evlərdə yaşamalıdırlar. Əks təqdirdə onların sağalmasından söhbət gedə bilməz. Müalicələri nə qədər vaxtlı-vaxtında aparılsa da, qidalanma lazımi qaydada olsa da, əgər vərəmli xəstələrin mənzil-məişət şəraiti yaxşı deyilsə, onların sağalması mümkün olmayacaq.

Yeri gəlmişkən, oksigenin və sanitariya qaydalarına riayət olunmasının da belə xəstələr üçün vacib olduğunu vurğulamaq istərdim. Təbii ki, gün düşməyən evlərdə həm oksigen azlığı olacaq, həm də antisanitariya. Burada antisanitariyanı kimsə yaratmır, rütubətin özü müxtəlif həşəratların yaranmasına səbəb olur ki, bu da nəinki xəstə insanlar, ən sağlam adamlar üçün də real təhlükədir. Oksigen də təbii ki, rütubətli evdə ola bilməz. Bu səbəbdən də xəstələr öskürməkdən boğulmaq dərəcəsinə gəlirlər.

Şükürlər olsun ki, müstəqilliyimizin bərpasından sonra iqtisadi dirçəlişimiz nəticəsində şəhərlərimizdə köhnə ictimai yaşayış binaları sökülür, yerində hündürmərtəbəli gözəl, işıqlı evlər tikilir. Qədimdənqalma fərdi yaşayış evləri də plana salınır və orada yaşayanlar abad mənzillərlə təmin olunurlar.

Rayonlarımızda da bu sahədə insanların təfəkküründə, sözün həqiqi mənasında, inqilab baş verib. İndi kəndlərimizdə də hər kəs köhnə evlərini əsaslı təmir edir və ya yeni, iki-üç mərtəbəli evlər tikirlər. Bütün bunlar isə, təbii ki, vərəm xəstəliyinin qarşısını alan amillərdir.

## Yeni sanatoriya ilə vərəmsiz həyata doğru

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, vərəm ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. Buna baxmayaraq, vərəm sağalan xəstəlikdir. ÜST-nin ekspertlərinin fikrincə, onun aşkarlanması, müalicəsi və sağalması üçün əhalinin məlumatlılığının artırılması, qlobal epidemiyanın ləğvi və profilaktika üsulları ilə əlaqədar səylər birləşdirilməlidir. Son illər vərəmin diaqnostika və müalicəsində səmərəliliyin artırılması statistikaya da müsbət təsirini göstərib, həm yoluxma, həm də ölüm hallarında azalma müşahidə edilməkdədir.

Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edilən ölkələrdən biridir. Ölkəmizdə də ictimai sağlamlığın əsas məsələlərindən olan vərəmlə mübarizədə dövlət proqramı və Milli Strategiya qəbul edilib, ixtisaslaşmış tibb müəssisələri tikilib, müasir yanaşma tətbiq olunub. Respublikamızda rəsmi qeydiyyata düşən vərəm xəstələrinin müayinəsi və müalicəsi tam dövlət hesabına həyata keçirilir.

Vərəmlə mübarizə tədbirləri sırasında Prezident İlham Əliyevin "Bakı şəhərində professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" 31 yanvar 2019-cu il tarixli Sərəncamı ölkəmizin bu xəstəliyi daşıyan uşaq əhalisinin müalicəsi istiqamətində xüsusi əhəmiyyətə malikdir. Sərəncama əsasən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə 11 468 300 (on bir milyon dörd yüz altmış səkkiz min üç yüz) manat vəsait ayrılmışdır.



Ötən dövr ərzində əsaslı yenidənqurma tədbirləri həyata keçirilmiş, sentyabr ayının 8-də dövlətimizin başçısı Başı şəhərində professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının açılışını etmişdir.

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verərək bildirmişdir ki, 1914-cü ildən fəaliyyət göstərən sanatoriya sağlamlığına qovuşmaq istəyən şəxslərin istifadəsi üçün tam hazır vəziyyətə gətirilib. Sanatoriya üçün 300 çarpayılıq beşmərtəbəli yeni bina inşa edilib. Sağlamlıq müəssisəsində müasir avadanlıqla təchiz olunmuş laboratoriyalar, şüa-diaqnostika, poliklinika, fizioterapiya şöbələri fəaliyyət göstərəcək. Sanatoriyaya uşaqlar 6 yaşa qədər və 7-17 yaş qrupları üzrə qəbul edilir. Sanatoriyada stasionar şəraitdə müalicə alan uşaqların 11 illik təhsili təşkil olunacaq və beləliklə, onların təhsillərində fasilələr yaranmayacaq.

Prezident İlham Əliyev sanatoriyanın fizioterapiya, rentgen otaqlarında, kliniki laboratoriyada, yeməkxanada, akt zalında, kitabxanada, palatalarda, sinif otaqlarında yaradılan şəraitlə tanış olmuşdur.

Hərtərəfli şəraiti olan sanatoriyada gələcəyimiz olan uşaqların vərəm xəstəliyindən birdəfəlik sağalmasına bütün imkanlar yaradılmışdır. Ümidvarıq ki, bu sanatoriyada övladlarımız sağlamlığına qovuşacaq, ölkəmizin sosial-iqtisadi, ictimai həyatının fəal iştirakçılarına çevriləcəklər.

## Vərəmsiz həyata böyük inam

Alimlər bütün dövrlərdə uzunömürlülüyün sirrini araşdırmış və sonda belə bir qənaətə gəlmişlər ki, bu, hər şeydən əvvəl, yaxşı yaşayışın nəticəsidir. Onların fikrincə, insan ömrünün bir il uzadılması cəmiyyətin 10 illik tərəqqisinin ekvivalentidir. Əlbəttə, tərəqqi deyəndə həm iqtisadi inkişaf, həm də insanların həyat tərzinin yaxşılaşdırılması, maddi vəziyyətlərinin yüksəldilməsi nəzərdə tutulur. Axı cəmiyyətdə və ayrı-ayrı adamların həyatında baş verən sosial-iqtisadi dəyişikliklər insanların psixoloji durumunun yaxşılaşmasına, beləliklə, onların daha çox yaşamasına gətirib çıxarır.

Həkimlər isə deyirlər ki, xəstəliyin müalicəsində insanın ümumi əhval-ruhiyyəsi böyük şərtdir. Onların bu sözləri fonunda düşünürəm ki, bəli, bütün xəstəliklərin müalicəsinin əsasında ruh yüksəkliyi, bunu yaradan rifah, rifahın yaratdığı inam dayanır. Bu gün ölkəmizdə ümumi rifah, kəndli-şəhərli bütün evlərdəki istilik, işıq, hərtərəfli şərait, ətrafımızdakı abadlıq, təmizlik, gözoxşayan gözəllik, böyük diqqət və qayğı, ümumilikdə, insan amilinə verilən dəyər əhalinin rahatlığına, firavanlığına xidmət edirsə, xəstə insanlar qarşısında isə şəfaya aparan yolu açır. Bu yolda indiyədək dövlətimiz çoxsaylı mübarizə aparıb. Hazırda ölkəmizdə narkomaniyaya qarşı mübarizə tədbirlərini də genişlənib. Çünki vərəm xəstəliyini yaradan səbəblərdən biri də narkomaniyadır. Vərəmə aparan yolların hamısının qarşısına maneələr qoymaqla sağlamlığa aparan yolun yaxın gələcəkdə vərəmsiz bir həyatda dayanacağına böyük inam hissi duyuruq.

***Mətanət MƏMMƏDOVA***

# Biz kimik?

## Kainatda canlıların yaşadığı planet tək Yerdirmi?

**Həyat zaman və məkanda mövcud olan bir anlayışdır. Əgər həyatın olduğunu canlıların varlığı ilə ölmürüksə və bu qanunauyğunluq kainatda təkrarlanırsa Yerdən başqa digər planetlərdə də canlıların, daha doğrusu həyatın olması ehtimalı böyükdür. Buna inansaq, həmin canlılarla bizim təmaslarımız niyə baş verməsin? Əgər bizdə bu məlumatı dəqiqləşdirəcək texnologiya yoxdursa, digərlərində niyə olmasın? Suallar artdıqca şübhələr də çoxalır.**



Kosmosda həyat nadirdir, maddənin yalnız kiçik bir hissəsi canlı formada mövcuddur. Həyat da zaman baxımından sürətlidir. Son elmi araşdırmalar göstərdi ki, kosmosda canlı varlıqların olması sadəcə bir qəza səbəbindən yaranıb. Sadə dillə desək, canlıların molekulyar quruluşunu təşkil edən kimyəvi elementlərdən təbiətdə də, yəni kosmosda da var. Sadəcə həmin elementləri çox ustalıqla, yəni düşünülmüş şəkildə bir yerə "yığmaq" lazım gəlib. Bu işi hansı qüvvənin bir araya gətirdiyi barədə elmin dəqiq məlumatı olmasa da, din bunun cavabını artıq tapıb, yəni Tanrı.

Yer planetinin bir çox sakinləri teleskoplar tərəfindən çəkilmiş görüntülərlə tanışdır. Qalaktikaların krujevalı qıvrımları, dumanlıqların ərik rəngli fraqmentləri, partlamış ulduzların qalıqları. Daha az mənzərəli, lakin hələ də tamamilə inqilabi olan Webb süni peykinin missiyasının biri də kainatda digər planetlərdə həyat əlamətləri axtarmaqdır. Kosmik teleskopu metodik olaraq ən mühüm vəzifəni yerinə yetirir, ulduzların sınmış, uzaq planetlərin atmosferlərindən keçən işığını təhlil edir. Hər bir molekul işıq şüasında özünəməxsus iz buraxır və oksigen, karbon qazı və metan kimi bəzi molekullar uzaq ulduzların işığının keçdiyi planetdə həyatın hansısa formasının mövcudluğunun sübutu ola bilər. Webb aparatı artıq ən azı bir ekzoplanetin atmosferində karbon qazının əlamətlərini aşkar edə bilib.

Qalaktikamızda milyardlarla planetin, Kainatın görünən hissəsində isə milyardlarla belə qalaktikanın olduğunu nəzərə alsaq, az sayda elm adamı canlıların yalnız bizim planetdə məskunlaşdığına inanır. Bununla belə, kosmosda başqa yerlərdə canlıların mövcudluğuna dair inandırıcı dəlillərin tapılması dərin emosional və psixoloji təsir göstərəcək və fəlsəfi və teoloji nəticələrə malik olacaqdır. Belə bir kəşf biz insanları bəzi fundamental inanclarımızı yenidən nəzərdən keçirməyə məcbur edər. "Həyatı" necə təyin edirik? Həyatın mümkün növləri hansılardır? Biz canlılar haradan gəldik? Bir növ kosmik icma varmı?

Əslində, son elmi araşdırmalar kainatda həyatın çox nadir olduğunu göstərir. Bir neçə il əvvəl Kepler peykindən əldə edilən məlumatlardan istifadə edərək, yaşaması mümkün planetləri olan ulduzların sayı hesablanıb. Məlum olub ki, bütün potensial yaşayış planetlərində həyat olsa belə, kainatda canlı maddənin nisbəti olduqca kiçikdir - təxminən bir milyardıncı. Bunu Qobi səhrasında bir neçə qum dənəsi ilə də müqayisə etmək olar. Yəni biz canlılar atomların və molekulların çox xüsusi bir quruluşunun nəticəsiyik.

Həyat daha nadir ola bilər. 1970-ci illərin ortalarında avstraliyalı fizik Brandon Karter kainatımızın həyatın əmələ gəlməsi üçün kifayət qədər incə tənzimləndiyini qeyd edib. Məsələn, atomların nüvələrini bir yerdə saxlayan atom bağı qüvvəsi bir qədər zəif olsaydı, həyatın yaranması üçün zəruri olan kompleks atomlar heç ortaya çıxmazdı. Bu cazibə bir az daha güclü olsaydı, yeni yaranan kainatdakı bütün hidrogenlər kiçilərək heliuma çevrilərdi. Hidrogen olmasaydı, su da olmazdı. Əksəriyyət suyun həyat üçün nə qədər vacib olduğunu bilir. Bütün bu incə tənzimləmənin başqa bir nümunəsi, kosmosu dolduran "qaranlıq enerji" (1998-ci ildə kəşf edildi) əslində olduğundan bir qədər böyük olsaydı, kainat o qədər sürətlə genişlənər ki, maddə heç vaxt bir araya gələ bilməzdi. Beləliklə, ulduzlar həyat üçün zəruri hesab edilən bütün kompleks atomların əsas mənbəyini meydana gətirə bilər. Ancaq bir az daha az qaranlıq enerji ilə kainat o qədər sürətlə genişlənəcək və yenidən daralacaqdı ki, ulduzların da formalaşmağa vaxtı olmayacaqdı.



Karterin kainatımızda həyatın harada yarana bilməsi üçün irəli sürdüyü tənzimləmə fikri antropik prinsip adlanır. Bu prinsipin ortaya çıxardığı ən mühüm sual niyədir. Niyə kainat narahat olmalıdır ki, onun içində canlı maddə var? Bu sualın teoloji cavabı kainatın ağıllı dizayn formasıdır. Kainatımız həyatın mövcud olmasını istəyən hər şeyə qadir bir yaradıcı tərəfindən yaradılmışdır. Digər, daha elmi izahat budur ki, kainatımız çoxlu kainatlar adlanan, atom gücünə, qaranlıq enerjiyə və bir çox digər fundamental parametrlərə malik olan çoxlu sayda kainatlardan sadəcə biridir. Bu kainatların əksəriyyətində bu parametrlərin dəyərləri həyatın yaranmasına səbəb olan dar diapazona düşmür. Və biz bu "dost həyat" kainatlarından birində yaşayırıq, çünki əks halda biz sadəcə mövcud olmazdıq və bu sualı verməzdik. Bizim varlığımız və kainatımızın özü sadəcə bir təsadüfdür.

Eyni məntiq Yer planetində həyat üçün əlverişli şəraitin - maye halında olan suyun, mülayim temperaturun (ən azı indiyə qədər), yüksək nizamlı maddələr mübadiləsi üçün lazım olan çoxlu miqdarda oksigenin niyə formalaşdığını izah edə bilər. Açıq izahat budur ki, hətta günəş sistemimizdə də suyun, atmosferdə oksigenin olmadığı və temperaturun o qədər də əlverişli olmadığı bir çox planet var. Və bu planetlərdə həyat yoxdur. Bu arada biz Yer kürəsində yaşayırıq, evlər tikirik, romanlar yazırıq və varlığımızla maraqlanırıq, çünki həyat üçün əlverişli şəraitin olduğu çox az sayda planetdən birindəyik. Qısacası, canlı maddə təkcə bizim öz kainatımızda nadir deyil, həm də mümkün kainatların əksəriyyətində ümumiyyətlə, mövcud deyildir.

Müasir fiziklər hər şeyi "birinci prinsiplərə", yəni bir neçə fundamental qanuna əsaslanaraq hesablaya bilməklə fəxr edirlər. Məsələn, bir fizik topun üç fut hündürlükdən atıldığı təqdirdə enerjinin saxlanması qanunundan istifadə edərək yerə nə qədər sürətlə dəyəcəyini hesablaya bilər. Qapalı sistemdə ümumi enerji sabitdir, baxmayaraq ki, bu enerji şəklini dəyişə bilər. Enerjinin saxlanma qanunu da öz növbəsində "stasionarlıq" adlanan daha dərin prinsipdən irəli gəlir - təbiət qanunları zamanla dəyişmir.

Əsas qanunların köməyi ilə fiziklər səmanın rəngini, planetlərin dəqiq orbitlərini, elektronda maqnit qüvvəsinin gücünü və bir çox başqa hadisələri hesablaya biliblər. Ancaq eyni ilkin prinsiplərə və qanunlara tabe olan bir çox müxtəlif kainatlar olsa da, kainatımızın əsas təbiəti hesablamazdır. Kainatımızın bəzi əsas xüsusiyyətləri təsadüfi olmalıdır. Fiziklər həqiqətən təsadüfiliyi sevmirlər, təbiətdə nə baş verirsə hamısı qanunauyğundur. Qanunauyğunluq, sistematiklik olmasa əlil arabaları birdən havaya uça, bəzi günlərdə günəş çıxmaya bilər. Onda dünyamız qorxulu bir yerə çevrilə bilər.

Çoxlu kainat ideyasının başqa bir narahatedici cəhəti də var. Bu kainatlar toplusu həqiqətən mövcud olsa belə, onların mövcudluğunu sübut etmək və ya təkzib etmək üçün sadəcə olaraq heç bir yol olmadığı ortaya çıxa bilər. Tərifinə görə, kainat, hətta sonsuz gələcəkdə belə başqa bir bölgəyə siqnal göndərə bilməyən məkan və zamanın qapalı bölgəsidir. Yəni bir kainat başqa bir kainatla əlaqə saxlaya bilməz. Kainatların hipotetik dəsti yalnız iman əsasında qəbul edilməli və ya rədd edilməlidir. Elm adamları şansı sevmədikləri kimi, sübut edə bilməyəcəkləri bir şeyə inandırılmağı da sevmirlər. Ancaq özümüzü tapdığımız bu qəribə məkanın çoxlu kainatı və digər aspektləri bu an bizim üçün nəinki naməlum, həm də əsaslı olaraq bilinməz ola bilər. Bu fikir uzun bir elmi ənənəyə zidd ola bilər.

Çoxlu kainat fərziyyəsini bütün elm adamları qəbul etmir. Ancaq bir şey dəqiqdir: kainatımızda həyat olduqca nadirdir. Maddənin yalnız kiçik bir hissəsi canlı şəkildə mövcuddur. Zamanla, kainatın uzun tarixində həyat da nadirdir. Gələcəkdə, bəlkə də bir neçə yüz milyard il sonra, bütün ulduzlar yandıqdan və bütün enerji mənbələri tükəndikdən sonra, kainatımızdakı həyat dayanacaq - təkcə Yer kimi həyat deyil, bütün planetdəki həyat formaları da yox olacaq.

Bu fikirdən hansı nəticəyə gəlmək lazımdır? Biz canlılar kainatın özünü müşahidə edə biləcək bir mexanizmik. Biz canlılar geniş səhrada bir neçə qum dənəsiyik. Biz atomların və molekulların xüsusi düzülüşünün nəticəsiyik və varlığın bu gözqamaşdırıcı mənzərəsini anlamağa və çəkməyə çalışa bilərik. Müəyyən dərəcədə biz canlılar kainata məna veririk. Biz olmasaq, kosmos sadəcə kosmos olardı. Biz kainatda tək canlı olan planetik, Yerimizin qədrini bilək, onu özünüməhvetmə həddinə çatdırmayaq...

***V.VƏLİYEV***



# Əvəz Zeynallı müxalifətə rəqib, yoxsa həmfikir idi?

*Müxalifət liderlərinin "Xural" media qrupunun rəhbərinin həbsindən məmnun olduğu üzə çıxır*

Hüquqi və demokratik inkişaf yolu seçən Azərbaycanda başlıca hədəflər insan hüquq və azadlıqlarının qorunması və sərbəst bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olunması üçün zəruri addımların və islahatların aparılmasıdır. Ulu Öndərimiz Heydər Əliyevin müəllifliyi ilə 12 noyabr 1995-ci ildə qəbul edilən Konstitusiyamızda fikir və söz azadlığı, mətbuat və məlumat toplamaq azadlığına xüsusi önəm verilir. Dahi Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra inkişafına xüsusi diqqət ayırdığı sahələrdən biri də, mətbuat və söz azadlığı olmuşdur. Məhz Ulu Öndər Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli fərmanı ilə mətbuata senzura ləğv edilmiş, KİV dövlət nəzarətindən çıxarılmış, jurnalistlərin sosial-məişət problemlərinin həlli istiqamətində mütərəqqi addımlar atılmış, qəzetlərin ”Azərbaycan” nəşiriyyatına olan borcları silinmişdir. 2009-cu ildə isə Azərbaycan Respublikası Prezidenti Yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu, daha sonra isə yeni dövrün çağırışlarına uyğun olaraq Azərbaycan Respublikası Prezidenti Yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Agentliyi yaradılmışdır. Hazırda istənilən şəxs istədiyi zaman qəzet təsis edə, sayt aça, internet televiziya yaradaraq sosial şəbəkələr vasitəsi ilə paylaşımalar edə, fikirlərini səsləndirə bilər. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan hakimiyyəti mətbuat və söz azadlığının genişlənməsində maraqlıdır. Bununla belə dövlətimizin əsas istəyi milli və dövlətçilik maraqlarının təmin olunmasıdır. Bu istək ölkə vətəndaşlarının mənafeyinə və hər bir insanın rifahına xidmət edir. Həm də milli təhlükəsizliyin təmin olunmasına əsaslanır. Amma təəssüf doğuran məqam ondan ibarətdir ki, yaradılan şəraitdən, demokratik mühitdən istifadə edərək, bəzi saytlar, internet şəbəkə istifadəçiləri ağa qara deməyə, ölkənin milli və dövlətçilik maraqlarına zərbə vurmağa xidmət edən paylaşmalar edir, statuslar yayır, məqalələr dərc edirlər. Halbuki, ”Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasın”da və ”KİV haqqında qanun”da şər və böhtanların yayılması, milli təhlükəsizlik məsələlərinə zidd fəaliyyətin göstərilməsi yolverilməzdir və cinayət məsuliyyəti yaradır. ”Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasın”da qeyd olunur ki, qanunçuluq, şəffaflıq, əməkdaşlıq, qarşılıqlı məsuliyyət, kütləvi informasiya vasitələrinin müstəqilliyinin qorunması, onların fəaliyyətinə hər hansı müdaxilənin istisna edilməsi, yayılması qanunla qadağan olunmuş informasiyadan cəmiyyətin qorunması, kütləvi informasiya vasitələrinin inhisarlaşmasının qarşısının alınması, ictimai maraqları əks etdirən layihələrə üstünlük verilməsi və digər müddəalar əsas götürülməlidir. Ancaq görünən ondan ibarətdir ki, heç də jurnalist etikası çərçivəsindən kənar fəaliyyətlərini quran sayt, qəzet rəhbərləri və ya sosial şəbəkə istifadəçiləri qəbul olunan qayda və prinsiplərə əməl etmirlər. Bu da onların müstəqil olmaması ilə bağlıdır.

### Əvəz Zeynallının həbs edilməsindən sonra təxribat maşını öz çirkin kampaniyasını daha da aktivləşdirib

Araşdıranda və təhlillər apardıqda məlum olur ki, şər və böhtanlar yazan və ya paylaşımlar edən sayt rəhbərlərinin və ya sosial şəbəkə istifadəçilərinin arxasında dağıdıcı xislətli müxalifət partiyaları dayanır. Nə zaman sosial şəbəkələri izləsən, orada ”Azadlıq” radiosunun, ”Azadlıq” qəzetinin, ”Meydan Tv”-nin və digərlərinin, o cümlədən Qənimət Zahidovun, Qurban Məmmədovun, Orduxan Temirxanın, Vidadi İsgəndərlinin, Məhəmməd Mirzəlinin və digərlərinin əmrə müntəzir qul kimi xarici ağalarının göstərişlərinə uyğun olaraq Azərbaycan xalqı və dövləti haqqında şər və böhtanlar yaydıqlarını görmək və ya oxumaq olar. Son günlər isə onların bazarları bir qədər də genişlənib. Yəni, ”Xural” TV-nin rəhbəri Əvəz Zeynallının həbs edilməsindən sonra təxribat maşını öz çirkin kampaniyasını daha da aktivləşdirib. Sanki hazırda yarış gedir, kim daha çox Azərbaycan hüquq-mühafizə orqanları haqqında şər yazacaq, fikir səsləndirəcək. Azərbaycanın dağıdıcı müxalifəti də, siyasi maraqları üçün Ə.Zeynallının həbsindən geninə-boluna yararlanmağa çalışır. Halbuki, son günlərə qədər onlar trolları vasitəsilə Ə.Zeynallını hakimiyyətin maraqlarına uyğun fəaliyyət göstərməkdə ittiham edirdilər. Hətta bəzi müxalif partiya funksionerləri müstəqil cameədə Əvəz bəyi müxalifətin əsas rəqibi kimi təqdim edirdilər. İkiüzlüyə və riyakarlığa öyrəncəli olan müxalifət indi ortaya fərqli mövqe qoyur, Ə.Zeynallının haqsız yerə həbs edildiyini bildirib, hay-küy qaldırır.

### Eynulla Fətullayev Ə.Zeynallının həbsinə görə günahkardırmı?

Mövzunu bir qədər də dərinləşdirməzdən əvvəl qeyd edim ki, Binəqədi rayon Məhkəməsinin qərarı ilə Əvəz Zeynallı və vəkil Elçin Sadıqov haqqında 4 ay müddətinə həbs qətimkan qərarı seçilib. Məlumata əsasən, Ə.Zeynallıya külli miqdarda rüşvət alma ilə bağlı maddə üzrə ittiham təqdim olunub. Xatırlatmaq yerinə düşər ki, Haqqın.az saytının baş redaktoru Eynulla Fətullayev iddia edib ki, jurnalist Əvəz Zeynallı həbsdə olan bir iş adamının ailəsindən yüksək məbləğdə pul tələb edib və bunun müqabilində onu tənqid etməyi dayandıracağını bildirib. Əvəz Zeynallı isə bu iddiaları rədd edib. Sual yarana bilər ki, Haqqın.az saytının rəhbəri E.Fətullayev Ə.Zeynallının ittiham hədəfinə çevrilməsinə görə günahkardırmı? Bəlkə də qınaq obyekti ola bilər. Ancaq nəzərə almaq lazımdır ki, E.Fətullaye jurnalistdir. Hər bir jurnalist, o cümlədən redaksiya mühüm informasiya yükünə malik məlumatları əldə etməkdə hər zaman maraqlı olur. E.Fətullayev də haradansa və ya necəsə əldə etdiyi məlumatı əlinə düşən mühüm material olaraq yaymağa tələsib və istəyinə də nail olub. Bəlkə də E.Fətullayev bu məlumatı yaymaqla Ə.Zeynallının həbs oluna biləcəyini anlamayıb. Yəni, E.Fətullayev bu kimi informasiyaların öyrənilməsi və əsaslı şübhələr yarana biləcəyi təqdirdə prokurorluq orqanlarının cinayət işi qaldıra biləcəyini bilməyib. Yəni, Haqqın.az saytının rəhbəri qanunvericilikdən xəbərsizdir. Bu da başa düşüləndi. Çünki o, hüquqşünas deyil, jurnalistdir. Nəticədə, bir jurnalist, digər jurnalistin rüşvət alma maddəsi ilə məsuliyyətə cəlb olunaraq həbs olunmasına vəsilə oldu.

### Əvəz Zeynallı özünü müdafiə etmək haqqına malikdir

Təbii ki, hər bir şəxsin özünü müdafiə etmək hüquqi var və bundan çıxış edərək də haqqında Cinayət Məcəlləsinin rüşvət alma maddəsi ilə cinayət işi qaldırılmış Ə.Zeynallı ona qarşı yönələn iddiaları rədd edir. Söz yox ki, məhkəməyə qədər istintaq geniş araşdırma aparacaq və materiallar toplamağa çalışacaq. İstintaqı aparan müstəntiqlər qanuna müvafiq olaraq jurnastin cinayəti varsa, onu sübuta yetirməlidirlər. Əks halda, Ə.Zeynallının azadlığa çıxacağı şübhəsizdir. Çünki biz azad, müstəqil, hüquqi dövlətdə yaşayırıq. Kimsəni törətmədiyi və ya iştirakçısı olmadığı cinayət işində adını halladırmaq və ya onu azadlıqdan məhrum etmək mümkün deyil. Bu baxımdan, susmaq və istintaqın yekunlaşmasını gözləmək lazımdır. Nəzərə almaq lazımdır ki, şantaj və ya əsassız hay-küylə Azərbaycan hüquq-mühafizə orqanlarına təsir etmək mümkün deyil. Dağıdıcı müxalifətin Ə.Zeynallının həbsindən öz siyasi maraqları üçün istifadə etməyə çalışmasına gəlincə, onların hərəkətləri boş qazanı danqıldatmaqdan başqa bir işə yaramır.

***İ.ƏLİYEV***

# “Vətən müharibəsi bizim şanlı tariximizdir”

“Azərbaycan Respublikasında 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması günüdür”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.

Onun sözlərinə görə, Anım Günü, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı ”Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” sərəncama əsasən qeyd edilir: ”Zəfər tarixinə nəzər salaraq, görərik ki, Dağlıq Qarabağ münaqişəsi işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən və uzun illər həllini tapmayaraq aparılan nəticəsiz danışıqlar əsasında başlamışdır: ”2020-ci il sentyabrın 27-də Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozması ilə Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq üçün əks-həmlə əməliyyatlarına başlamışdır. Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və xalqımızın yenilməz birliyindən ruhlanaraq düşmənə sarsıdıcı zərbələr endirmişlər. 44 günlük Vətən müharibəsinin ikinci il dönümünü qeyd edirik və bütün dünya bizim qəhrəman övladlarımızın şücaətini gördü. Xalqımızın birliyi, iradəsi və əzmkarlığı bizi qələbəyə gətirdi. Xalqın birliyi və ədalətli mövqeyi ”dəmir yumruq”da birləşərək işğalçıya sarsıdıcı zərbə vurdu. Bəli, Vətən müharibəsi dövründə Xalqla Dövlətin bir yumruq kimi birləşməsinin, düşmənə mənəvi zərbəsini də mütləq olaraq qeyd etməliyik”.

Deputat sözlərinə belə davam edib: ”Vətənimiz uğrunda mübarizə dövründə, Prezident İlham Əliyev diplomatik və informasiya savaşı cəbhəsində də misilsiz rəşadət göstərmiş, Azərbaycana qarşı informasiya blokadasını yarmış, müharibənin gedişində və müharibədən sonra onlarla aparıcı xarici KİV-ə müsahibələr vermişdir. Bu müsahibənin hər biri Azərbaycanın diplomatik uğuru olmuş - beynəlxalq təşkilatlar vasitəsilə ölkəmizə təzyiqlər cəhdinin qarşısı müvəffəqiyyətlə alınmışdır.

Vətən müharibəsi zamanı siyasi partiyaların da Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması milli məsələlərdə ölkədə hər hansı fikir ayrılığının istisna olunduğunu göstərmişdir. Azərbaycanın tarixinə Qələbə səhifəsi yazılmışdır. Cənab Prezidentə xalqın etibarı və ehtiramı sonsuzdur. Azad edilmiş ərazilərə səfərləri ilə Ölkə Rəhbəri öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirdi. Tarixdə bu gün, səhər saatlarından başlayaraq respublikamızın bütün şəhər və rayonlarinda, o cümlədən azad edilmiş ərazilərimizdə anım mərasimləri keçirilir, xalqımız Vətən uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizin xatirəsini qürurla yad edir.

Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu müharibənin qəhrəmanları, şəhidlər və qazilər bizim qürur mənbəyimizdir. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımızın göstərdiyi əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, hər zaman xalqın dəstəyinə arxalanan Prezident və öz Prezidentinə arxalanan xalq, qarşılıqlı olaraq düşmənə həm də mənəvi sarsıntı yaşatdılar.

Həmin dövrdə, Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmənin günahsız mülki insanları hədəfə alması, xalqımızın qələbə əzmini sarsıda bilməmişdir. Qurtuluş savaşında minlərlə şəhid verdik, həmvətənlərimiz arasında itkin düşənlər, sağlamlığını itirənlər də oldu. Lakin, torpaqlarımızı işğaldan qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı-canı bahasına azad edə bildik. Prezidentin Sərəncamında deyildiyi kimi, xalqımız və dövlətimiz mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiramla yanaşır, xatirəsini uca tutur. Bu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə vəfa borcumuzdur.

Müzəffər Ali Baş Komandan Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsini daim yüksək tutur, onların xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır, müvafiq qurumlara bununla bağlı lazımi tapşırıqlar verir.

Bu günü Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları müqəddəs Vətənimiz uğrunda canından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır. Ölkə ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilərək, uğrunda qanlarından, canlarından keçən bayrağımız şəhərlərdə, kəndlərdə, evlərin eyvanlardan asılaraq dalğalanır. Məsçidlərdə, dini məbədlərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhlarına dualar oxunur. Bu gün həmçinin İnsanlarımız Anım Gününü, gözlədikləri zəfər və iftixar günü kimi də qeyd edirlər. 24 sentyabır qürur və birlik günümüzdür.

Vətən müharibəsi şəhidlərinin xatirəsi xalqımızın əbədi olaraq qəlbində daim yaşayacaq. Onların qəhrəmanlıqları unudulmayacaqdır. Düşmənlərimiz 44 günlük Vətən müharibəsində Azərbaycan dövlətinin və xalqının qüdrətini gördü. Azərbaycan dövləti bütün dövrlərdə olduğu kimi, bundan sonra da şəhid ailələrinin və qazilərin yanında olaraq, onların problemlərinin həllinə xüsusi diqqət göstərəcək.

Qəhrəmanlar unudulmur! Vətən yolunda öz canlarından keçən hər bir Şəhidimizin ruhu qarşısında baş əyir, ruhunuz şad olsun deyir, ehtiramımızı bildiririk”.

***Ayşən Vəli***

# Yeni Azərbaycan Partiyası tarixi sınaqlardan uğurla çıxıb!

*YAP Ucar rayon təşkilatının 29-cu ildönümü qeyd olunub*





**YAP Ucar rayon təşkilatının yaranmasının 29-cu ildönümü qeyd olunub. SİA-nın verdiyi məlumata görə, tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Ucar rayonunun mərkəzində ucaldılmış abidəsi önünə tər çiçək dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsini ehtiramla anıblar. Sonra tədbir Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının qərargahında davam edib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Tədbiri YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq qeyd edib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti müstəqil Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biridir. Təşkilat sədri vurğulayıb ki, YAP yaradıldıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, xalqın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində partiyanın sıraları genişləndi və 1993-cü il sentyabrın 11-də Ucar rayon təşkilatı yaradıldı.

Daha sonra YAP Ucar rayon təşkilatının sədr müavini Nuru Piriyev rayon təşkilatının fəaliyyəti barədə məruzə edərək qeyd edib ki, partiyanın "Yeni, müstəqil Azərbaycan uğrunda" ideyasından çıxış edən YAP Ucar rayon təşkilatı dövlət siyasətinin həyata keçirilməsində yaxından iştirak edir. N.Piriyev bildirib ki, 1993-cü il sentyabr ayında 19 ərazi təşkilatında 160 nəfər üzvü olan rayon təşkilatının sıraları ötən illərdə rayon ziyalıları, xüsusilə də qadınların və gənclərin üzvlüyü ilə böyüyərək hazırda 58 ərazi təşkilatı üzrə 4286 nəfərə çatıb.

Rayon Ağsaqqallar Şurasının sədri Mirzalı Ağamalıyev, rayon Təhsil sektoru Ərazi Partiya Təşkilatının sədri Yeganə Süleymanova çıxışlarında bundan sonra da partiyanın qarşıya qoyduğu vəzifələrin icra olunmasında fəal olacaqlarını ifadə ediblər.

Milli Məclisin deputatı Ramil Həsən isə partiyanın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Heydər Əliyevin xalq və dövlət qarşısında göstərdiyi misilsiz xidmətlərindən danışıb. Ramil Həsən Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsinin Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Vurğulayıb ki, bu gün Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu tarixi ənənələr Yeni Azərbaycan Partiyası tərəfindən həyata keçirilməkdədir. Bu tarixi reallığı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qətiyyətli, dönməz siyasəti ilə gerçəkləşdirir. Daha sonra millət vəkili vurğulayıb ki, YAP Ucar rayon təşkilatı fəaliyyəti ilə seçilir.

Sonda rayon təşkilatının həyatında fəal iştirak edən bir qrup partiya üzvlərinə Fəxri Fərman və partiya sıralarına yeni qəbul olunmuş üzvlərə üzvlük vəsiqəsi təqdim olundu.

**ZÜMRÜD**

# Yüksək bilik işıqlı gələcəkdir

*YAP Bərdə rayon təşkilatında tələbələrlə görüş keçirilib*





Avqustun 9-da YAP Bərdə rayon təşkilatı, Qarabağ Regional Təhsil İdarəsinin Bərdə sektoru birlikdə 2022-cü ildə 600-dən yuxarı bal toplayaraq respublikamızın ali məktəblərinə qəbul olunmuş bərdəli tələbələrlə görüş keçirmişdir. Tədbirdən öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər güllər düzülmüş, əziz xatirəsi ehtiramla anılmışdır. Tədbirdə Bərdə təhsil sektorunun müdiri Qurban Məmmədov məruzə edərək ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində son illər respublikamızın bütün regionlarında olduğu kimi, Bərdə rayonunda da təhsilin inkişafı istiqamətində görülmüş işlərdən, təhsil sahəsində əldə olunan uğurlardan danışmışdır. Bildirmişdir ki, 2021-2022-ci tədris ilində Bərdə rayonun məktəbləri üzrə 1255 nəfər məzun olmuş, onlardan 541 nəfəri ali məktəblərə daxil olub. 19 məzin 600-dən yuxarı, 64 məzun 500-dən yuxarı bal toplamışlar.

Tədbirdə YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya çıxış edərək gəncləri tələbə adı qazanmaqları münasibətilə təbrik etmiş, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən dövlət təhsil siyasətindən, təhsilin maddi texniki bazasının möhkəmləndirilməsindən, Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə diqqət və qayğısından danışmışdır. Görüşdə qəbul imtahanlarında yüksək bal toplamış tələbələr adından Akademik Z.Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin məzunu, Azərbaycan Tibb Universitetinin tələbəsi Nigar Bayramlı, Türkmən kənd tam orta məktəbin məzunu, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsi Orxan Qarayev, valideynlər adından 8 saylı tam orta məktəbin məzunu, Bakı Dövlət Universitetinin tələbəsi Gülşən Kamillinin valideyni Pərvanə Məmmədova çıxış edərək ölkəmizdə təhsilin inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci Vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər. Tədbirdə çıxış edən natiqlər gəncləri tələbə adı qazanmaları münasibətilə təbrik etmişlər. Sonda yüksək balla ali məktəblərə daxil olmuş tələbələrə YAP Bərdə rayon təşkilatının Fəxri fərmanları, Ulu öndər Heydər Əliyevin imzası olan döş nişanları və Qarabağ Regional Təhsil İdarəsinin qiymətli hədiyyələri təqdim olunmuşdur. Tədbir şəhər 7 saylı və Xanqaraqoyunlu kənd tam orta məktəblərin şagirdlərinin yenicə tələbə adı qazanmış gəncləri təbrik üçün hazırladıqları kompozisiya ilə başa çatmışdır.

# YAP Göygöl rayon təşkilatında görüş keçirilib

10 sentyabr 2022-ci il tarixdə YAP Göygöl rayon təşkilatının inzibati binasında keçirilən yığıncaqda Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev iştirak edib. YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev tədbir iştirakçılarını salamladıqdan sonra Azərbaycan Respublikasının qurucusu Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Yığıncağı giriş sözü ilə açan YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev Yeni Azərbaycan Partiyasının VII Qurultayında qəbul edilmiş qərarlardan irəli gələn vəzifələrdən danışmış, partiya həyatındakı yeniliklərdən və nailiyyətlərdən söhbət açılmış, YAP Mərkəzi Aparatının tapşırıq və tövsiyələrini diqqətə çatdırmışdır. Həmçinin Yeni Azərbaycan Partiyasının noyabr ayında keçiriləcək 30 illik yubileyinin rayon ərazisində yüksək səviyyədə qeyd olunması ilə bağlı tədbirlərin müəyyən olunduğunu önə çəkərək, Ərazi Partiya Təşkilatlarında yubiley tədbirlərinin keçirilməsi üçün tapşırıqlar vermişdir. Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin İdarə Heyətinin üzvü Fərid Dünyamalıyev gənclər adından çıxış edərək Azərbaycanın beynəlxalq siyasi arenada olan yeri və əldə olunan nailiyyətlər haqqında danışmış, dövlət siyasətinin ictimaiyyət arasında təbliği və izahı sahəsində YAP gənclərinin üzərinə düşən vəzifə və öhdəlikləri diqqətə çatdırmışdır.

Göygöl rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev çıxış edərək cəmiyyətin avanqard hissəsi olan Yeni Azərbaycan Partiyasının tarixi zərurətdən yaranmasından, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından danışmış, sözün əsl mənasında, ömrünü Azərbaycan xalqına, dövlətçiliyimizin inkişafına həsr etdiyini vurğulayaraq, xalqımızın və dövlətimizin bu günü üçün Heydər Əliyevə borclu olduğumuzu qeyd etmişdir. Ölkə rəhbəri cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasətin həyatımızın bütün sahələrini əhatə etdiyini, insanların rifah halının daha da yüksəlməsi üçün çox böyük əhəmiyyətə malik olduğunu, daim yeni-yeni uğurlara imza atıldığını və gələcək həyatımızın daha da yüksək təminatı üçün yeni-yeni hədəflərin müəyyən olunduğunu bildirmişdir. Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin müsbət nəticələri bütün çıxış və nitqlərdə aktuallığı ilə səslənmiş, Ümummilli Lider Heydər Əliyev ideyalarının fəal təbliğatçısı olan YAP-ın hər bir üzvünün yeni-yeni hədəflərə doğru inamla irəliləyən Azərbaycanın bu məqsədlərə yüksək səviyyədə nail olmasına öz töhfəsini verdiyi bildirilmişdir. Tədbirin yekununda rayonun ictimai-siyasi həyatında və partiya quruculuğu işində fərqlənən bir qrup şəxslərə Yeni Azərbaycan Partiyası Göygöl rayon təşkilatı tərəfindən hazırlanmış fəxri fərmanlar və qiymətli hədiyyələr verilmiş, üzvlüyə yeni qəbul olunmuş bir qrup partiya üzvünə üzvlük vəsiqələri təqdim olunmuşdur.

**Rəfiqə**

# Qərbin və Rusiyanın oyuncağı



**“Bu son danışıqlar prosesi yəni, Brüsseldə keçirilən dördüncü görüş və ondan sonra Ermənistan tərəfindən verilən açıqlamaların hamısı bir-biri ilə ziddiyyətlidir”. Bunu SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib.**

Onun sözlərinə görə, Brüsseldə müəyyən razılıqlar əldə olunsa da, daha sonra Ermənistan tərəfi verdiyi açıqlamaların əksinə addımlar atmağa başlayır:” Bu isə o deməkdir ki, Ermənistan tərəfi danışıqlar prosesində qeyri- konstruktiv mövqe sərgiləyir. Belə olduğu halda, danışıqların davam etdirilməsi çətindir. Digər tərəfdən, təxribatlar ən üst səviyyə qalxıb. Bu təxribatlar yanlız siyasi arenada görünmir. Sərhəddə də özünü büruzə verir. Siyasi arenada verilən açıqlamalar təxribatların tərkib hissəsidir. Digər tərəfdən, bu təxribatlar mənasız yerə baş vermir. Məlum məsələdir ki, Ermənistanın xaricdən daha çox asılı olması hər zaman bir -birini təkzib edən açıqlamalar verməsinə imkan yaradır. Yəni, həm Qərbin, həm də Rusiyanın əlində oyuncağa çevrilmiş bir ölkənin bu cür bəyanatlar verməsi təsadüfi deyil. Çünki belə açıqlamalar verməklə guya hər bir tərəfin maraqlarını təmin etməyə çalışırlar. Əslində öz dövlət maraqlarını belə təhdid altına qoyurlar. Azərbaycan isə hər zaman bildirib ki, bu kimi təxribatlara icazə verməyəcəklər. Qarabağ mövzusu müzakirə predmeti deyil. Azərbaycanın humanist yanaşmasından sonra Ermənistanın bu cür təxribatlar törətməsi ölkə daxilində baş verən proseslərdən və Qarabağ klanından, xarici qüvvələrdən asılıdır”.

*Qönçə Quliyeva*

# Hansı hallarda işəgötürən işçinin maaşından kəsə bilər?

“İşçinin əmək haqqından tutulmalara yol verilən hallar və bunun icrası qaydası ƏM-nin 175-ci maddəsində öz əksini tapmışdır. Əmək haqqından müvafiq məbləğlər bu maddə ilə müəyyən edilən hallar istisna edilməklə yalnız işçinin yazılı razılığı ilə, yaxud məhkəmənin qərarı ilə qanunvericiliklə nəzərdə tutulmuş icra sənədləri üzrə tutula bilər”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.



VƏKİL AYDLNLIQ GƏTİRDİ

Onun sözlərinə görə, işəgötürənin sərəncamı ilə işçinin əmək haqqından yalnız aşağıdakı ödənişlər tutulur:

”1. qanunvericiliklə müəyyən edilmiş müvafiq vergilər, sosial sığorta haqları və digər icbari ödəmələr;

2. qanunvericilikdə nəzərdə tutulan icra sənədləri üzrə müəyyən edilmiş məbləğ;

3. işəgötürənə işçinin (tam maddi məsuliyyət daşıdığı hallar istisna olunmaqla) təqsiri üzündən onun orta aylıq əmək haqqından artıq olmayan miqdarda vurduğu ziyanın məbləği;

4. müvafiq iş ilinə görə məzuniyyətə çıxmış və həmin iş ili bitənədək işdən çıxdığı halda məzuniyyətin işlənməmiş günlərinə düşən məzuniyyət pulu;

5. xidməti ezamiyyətə göndərilən işçiyə avans olaraq verilmiş ezamiyyə xərclərinin ezamiyyətdən qayıtdıqdan sonra artıq qalmış borc məbləği;

6. mühasibat tərəfindən ehtiyatsızlıqla səhvən yerinə yetirilən riyazi əməliyyatlar nəticəsində artıq verilmiş məbləğlər;

7. təsərrüfat ehtiyaclarından ötrü malların, əmtəələrin alınması üçün verilmiş, lakin xərclənməmiş və vaxtında qaytarılmamış pulun məbləği;

8. kollektiv müqavilələrdə nəzərdə tutulan hallarda müəyyən edilmiş məbləğ;

9. həmkarlar ittifaqının üzvü olan işçilərin əmək haqqından mühasibatlıq vasitəsi ilə tutulan və 4 iş günü müddətində həmin müəssisənin həmkarlar ittifaqı təşkilatının xüsusi hesabına köçürülən həmkarlar ittifaqına üzvlük haqları.

Bundan əlavə işəgötürən avansın qaytarılması, borcun ödənilməsi üçün müəyyən edilmiş müddətin qurtardığı gündən və ya səhv riyazi hesablamalar nəticəsində düzgün hesablanmamış pulun verildiyi gündən bir ay müddətində məbləğin tutulması haqqında mühasibat əməliyyatı apara bilər. Bu müddət bitdikdən sonra işçidən həmin məbləğlər tutula bilməz. İşdənçıxma müavinəti və qanunvericiliyə müvafiq olaraq vergi tutulmayan digər ödənclərdən məbləğlərin tutulmasına yol verilmir. Hesabda səhvə yol verilməsi halları istisna olmaqla, işəgötürən tərəfindən işçiyə artıq verilmiş əmək haqqı, o cümlədən müvafiq qanun və digər normativ hüquqi aktların düzgün tətbiq edilməməsi nəticəsində verilən məbləğlər işçidən tutula bilməz. Qeyd edilməlidir ki, əmək haqqından tutulan məbləğlərin miqdarının məhdudlaşdırılmışdır”.

Vəkil sözlərinə əlavə edərək bildirib ki, hər dəfə əmək haqqı verilərkən tutulan bütün məbləğlərin ümumi miqdarı işçiyə verilməli olan əmək haqqının iyirmi faizindən müvafiq qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə əlli faizindən artıq ola bilməz: ”Əmək haqqından bir neçə icra sənədinə əsasən məbləğlər tutularkən, bütün hallarda işçinin əmək haqqının əlli faizi saxlanmalıdır. Lakin bu qayda alimentlərin tutulması, sağlamlığa vurulmuş ziyanın ödənilməsi, ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsi və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi zamanı işçiyə verilən əmək haqqından məbləğlərin tutulmasına şamil edilmir. Yəni bu halda işçinin əmək haqqına tam tutma yönəldilə bilər”.



*Ayşən Vəli*



Mətanət MƏMMƏDOVA

# Övladlarımızı “Tiktok”dan qoruyaq!

**Onsuz da internet, onun ardınca sosial şəbəkələr həyatımıza daxil olandan hər şey dəyişməyə başladı. Yəni heç nə əvvəlki kimi deyil artıq. Nə valideynlər əvvəlki valideyndir, nə uşaqlar, nə də ki, cəmiyyət.**

Həsrətlə gözlədiyimiz texnologiyanın inkişafı bu imiş, deməli. Bir vaxtlar ”texnologiya gündən-günə inkişaf edəcək, bu isə insanların həyatını asanlaşdıracaq, işini yüngülləşdirəcək, intellektini artıracaq” kimi xəbərləri eşidəndə sevinirdik, bu səbəbdən də o inkişafı əziz qonağımız kimi gözləyirdik. Ta nə bilərdik ki, həmin inkişaf nələrlə nəticələnəcək...

Əsas söhbətimizə gələnə qədər onların bir neçəsini xatırlayaq. Məsələn, paltaryuyan, qabyuyan, ətçəkən maşınlar həyatımıza daxil oldu-olmadı, bütün qadınlar xəstə oldular, hədindən artıq çəki almağa başladılar. Yəni qadınlarımızın fiziki hərəkəti bu yeniliklərlə əllərindən alındı və onlar passivləşməyə başladılar, artıq nə qab, nə paltar yudular, əti asanlıqla çəkdilər. Nəticədə isə hərəkətsizlikdən xəstə oldular və ya inanılmaz çəki almağa başladılar.

Daha sonra kompüterlər, smartfonlar meydana gəldi. Gəlişləri ilə də həyatımızı dəyişdirdi. İnsanlar günün çox saatını kompüter qarşısında keçirməyə başladılar. Uşaqların gəzinti, açıq havada oyun saatlarını kompüter qarşısında əyləşib şiddət təlqin edən oyunlar oynamaları əvəz etdi. Bir də baxdıq ki, övladlarımızın əksəriyyətində göz problemi yaranıb. Belə olanda üz tutduq həkimə, gözlük yazdırdıq, onların gözünə taxdıq. Söhbət indi küçədə hər addımda bir gördüyümüz eynəkli uşaqlardan gedir...

Elə ki, ailədə 4-6 nəfərin hər birində telefon oldu, hər kəs öz telefonunu əlinə alıb başını aşağı dikdi. Bir də baxdıq ki, biz ünsiyyət nədir, aylardır, ondan uzağıq. Beləliklə ata uşağın, ana ümumi ailənin qayğısından uzaqlaşdı, uşağın dərsləri zəiflədi, gözləri də üstəlik. Neçə-neçə ailələr smartfonların qurbanı oldu. Ər-arvad münasibətlərini smartfonlar alt-üst etdi. Neçə-neçə ailələr dağıldı bu yeni texnologiya ucbatından...

Sonra həyatımıza çərşənbədə bir, şənbədə bir sosial şəbəkələr daxil olmağa başladılar. Biz nə etdik? Bu sosial şəbəkələrin yaxşı tərəflərindən çox mənfi tərəflərindən istifadə etməyə başladıq. Bir də baxdıq ki, vay, biz bizlikdən çıxırıq axı. Geyimimiz, rəftarımız dəyişdi, saçımızın rəngi dəyişdi, corabımızın birini bir rəng, o birini bir rəng geyinməyə başladıq. Yeni dəblər həyatımıza daxil oldu. Bir qarış ətəklər, şortlar, köynəklər bədənimizin elə bircə qarışını örtüb qalan hissəni bayırda qoydu. Bəzən ictimai yerlərdə hərəkətlərimiz də bizimki olmamağa başladı...

Gəldik çıxdıq ”Tiktok”a. Artıq ”Tiktok” dövründə elə bir məqamdayıq ki, uşaqlı-böyüklü hamımızın əlində telefon var, hamımız istədiyimiz sosial şəbəkədəyik. Məhz elə bu durum həyəcan təbilinin çalınma vaxtını hələ xeyli də gecikdirdiyimizi göstərir.

”Tiktok” uşaq-yeniyetmə və gənclərimiz üçün böyük təhlükə qaynağıdır. Böyük həyəcanla o təbili çalmaq, valideynləri övladlarına nəzarət etməyə çağırıram. Bu sosial şəbəkədə bizim milli mentalitetimizə, əxlaqımıza zidd, hansısa dairələrin marağına xidmət edən qızışdırıcı videolar var. İstəmədiyin, maraqlanmadığın təqdirdə qarşına çıxan çağırılmamış qonaqlar var burada. Sən dostunun, rəfiqənin, həmkarının, iş yoldaşının göndərdiyi hansısa bir videoya baxmaq istəyərkən özünü araya salan əxlaqsız videolar var.

Bunları bizim övladlarımız nə üçün görməlidirlər? Bizim körpə balalarımız nə üçün hansısa bir təbliğatın qurbanı olmalıdırlar. Bizim 12-14 yaşlı yeniyetmə uşaqlarımız nə üçün bu səhnələrlə qarşılaşmalıdırlar? Bizim gənclərimizin gözləri nə üçün bu əxlaqsızlıqları görməli, qulaqları bu təbliğatları eşitməlidir?

Axı bütün bunlar bizim cəmiyyətimizə, ailə dəyərlərimizə, mənəvi keyfiyyətlərimizə uyğun deyil. Biz nə etməliyik? Yalnız və yalnız övladlarımızı maarifləndirməli, onlar arasında təbliğat aparmalıyıq. Onları qarşılıqlı anlaşma şəklində belə şəbəkələrdən uşaq tutmalıyıq. Azyaşlı övladlarımızın əlinə telefon verməməliyik. Onlar hansısa bir cizgi filminə baxanda belə özünü araya salan videolar var.

Biz qədim ənənələri, mentaliteti, dəyərləri olan bir xalqıq. Bütün bunları isə nəsillərdən-nəsillərə ötürən insanlarımız olub. Biz o insanların davamçıları olmarıqsa, bizi nə tarix, nə də zaman bağışlamaz. Belə isə övladlarımızla söhbət aparaq, onlara nəzarət edək, bizim olmayanlardan, bizə aid olmayanlardan, bizi bizdən alanlardan uzaq tutaq. Başqa çarə yoxdur.

# Putin Avropanı "parçalayacaq"..?

**""Şimal axını" ilə qaz nəqlinin dayandırılması Avropanın enerji sektorunda fikir ayrılıqlarını göstərdi". SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə Misirin "NoonPost" nəşri məlumat yayıb.**



"...Mövcud böhran çox şeyi yenidən hesablayacaq və gələcəkdə alyans xəritəsinin formalaşması ilə rezonans doğuracaq yeni reallıq ortaya qoyacaq. Qərbin görünən birliyi indi onun arxasında kəskin fikir ayrılıqlarını gizlədir". Bunları Misir nəşri yazıb.

Nəşrin yazdığına görə, Avropa bu qış guya Rusiyadan gələn qaz nəqlinin dayanacağını heç gözləmirmiş. Amma "Şimal axını"nın qeyri-müəyyən müddətə dayandırılması avropalılar arasında çaşqınlıq yaradıb və təbii ki, bu da Qərbin daxili mühit sabitliyinin pozulma ehtimalını artırır.

Yenə də bəzi proqnozlara görə, bu il Avropanın sərt qışla üzləşəcəyi deyilir ki, bu da bir çox avropalı sakin istiliksiz və işıqsız qoya bilər. Əslində Avropada baş verə biləcək enerji böhranı regiondakı nüvə reaktorlarının fəaliyyətinə, istehsal proseslərinin dayandırılmasına da səbəb ola bilər. Misir nəşri, məlum olan bir həqiqəti, yəni qaz tədarükünün dayandırılmasının bu bölgədə yanacaq qiymətinə təsirsiz ötüşməyəcəyini, qiymətlərin qalxacağını da xatırladır.

Qeyd edilməlidir ki, Putin və onun administrasiyası Qərblə qarşıdurmada "qaz silahları"nın tam gücünü yaxşı bilirlər. Ona görə də, onlar, bundan istifadə edərək Avropanı "divara sıxacaqlarına" ümid edirlər.

...Məhz bunlara diqqət çəkən Misir nəşri,.. Rusiyadan tədarükün kəsilməsindən ən az təsirlənən ölkələrlə təbii ki, ən çox zərər çəkən cənub idxalçıları arasında parçalanmaya səbəb ola biləcəyini istisna etmir.

P.S. Artıq bir neçə müddətdir ki, "Şimal axını"nını dayandıran "Qazprom"...bunu kəmərdə yaranan problemlə əlaqələndirir. Amma maraqlıdır ki, Kreml qaz kəmərində "yaranan problem"ə görə də Qərb dövlətlərini günahlandırır. Belə ki, Moskvanın iddiasına görə, sən demə, sanksiyalar qaz kəmərinin təmirinə mane olurmuş.

***Ağasəf***

# "Qazanan Qərbdə silah istehsalçılarıdır"

"Rusiya-Ukrayna müharibəsinin istər regionda, istərsə də dünya miqyasında heç bir müsbət rolu yoxdur. Bunun ancaq mənfi rolu var". Bu sözləri SİA-ya açıqlamasında deputat Rüfət Quliyev deyib.



Onun sözlərinə görə, ilk növbədə, dünyada inflyasiya anormal vəziyyətdədir və cilovlana bilmir: "İstər inkişaf etmiş, istərsə də regionda olan ölkələrə bu təsir edir. Müharibə ABŞ, Almaniya, Böyük Britaniya, Avropa, Azərbaycan və s. ölkələrə təsir edir. Müharibə səbəbindən logistik və nəqliyyat şəbəkələri dağıldı. Kənd təsərrüfatı və qida məhsullarının da 30 faizi Rusiya və Ukraynanın payına düşür. Bu ölkələrin biri sanksiya altında, Ukrayna isə müharibə şəraitindədir. Ən vacibi isə insan tələfatı və iqtisadiyyatda geriləmədir. Qazanan Qərbdə silah istehsalçılarıdır. Bu günləri onların toy-bayramıdır. Bütün köhnə silahlar Qərb tərəfindən Ukraynaya kredit hesabına verilir. Bu, hədiyyə deyil. Vaxtı gələndə Ukrayna xalqı bu krediti ödəməlidir".

Deputat sözlərinə belə davam edib: "Mən, dünyada gedən proseslərdə Türkiyə prezidenti cənab Ərdoğanın addımlarını yüksək qiymətləndirirəm. O, bu ölkələri barış və sülhə səsləyir. Addımlar atılır ki, müharibə müəyyən fazada dayandırılsın. Rusiya və Ukraynanın isə bəlli tələbləri var. Ukraynanın tələbləri dünya sivilizasiyası üçün daha vacibdir. Bu günləri on minlərlə insan tələf olur və infrastruktur dağılır. Bunu bərpa etmək lazımdır. Ukrayna yenə kreditlərə girəcək və beynəlxalq qurumlardan asılı olacaq. Müharibə yalnız hərbi quruculuq işləri ilə məşğul olan şirkətlərə maraqlıdır. Onlar da günə 100 milyon dollarla mənfəət əldə edirlər".

***Ayşən Vəli***

# Müxalifət partiyaları dağılmağa məhkumdur

"Radikal müxalifət partiyaları 1990-cı illərdən necə yaranıbsa, indinin özündə də həmin vəziyyətdə qalmaqdadır. Adı qeyd olunan partiyalar sədrlərindən və ətrafında 5-6 nəfərdən ibarət olaraq qalıbdır". Bunu Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, bütün bunlar da onların zəif şəkildə inkişaf etməsindən xəbər verir: "Müxalifət partiyalarının zəif olmasının əsas səbəbi partiyalara rəhbərlik edən liderlərin səhv siyasət aparmaları ilə bağlıdır. Partiya sədrləri öz səhvlərini, öz içərilərində, partiyalarında və fəaliyyətlərində axtarmalıdırlar. Artıq bu, bir faktdır ki, son illər ərzində müxalifət milli siyasi məkanda yalnız öz maraqlarının təmin olunması baxımından fəaliyyətini qurub. Məhz adlarını müxalifət qoyan bu qaragüruhçular ölkəmizdə ictimai siyasi proseslərdə uğur qazana bilməyiblər, ictimai dəstəkdən məhrum olunublar. Xarici məkrli qüvvələrin sifarişlərini yerinə yetirməklə ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa can atan Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digər qaragüruhçular hər dəfə ayrı-ayrı dövlətlərdə xoşagəlməz hadisələr baş verəndə özlərinin varlığını sübut etməkdə fəallaşır, diqqət mərkəzinə çevrilməyə çalışırlar. Müxalifət partiyalarının inkişafdan qalması, cəmiyyətdəki ictimai-siyasi proseslərə təsir edə bilməməsinin səbəblərini, məhz həmin liderlərin yarıtmaz siyasət aparmaları ilə əlaqələndirmək lazımdır. Düşünürəm ki, bu partiyalar da həmin liderlərin şəxsi maraqları üzərində qurulub. Demək olar ki, qeyd olunan partiyalar ancaq bir şəxsin iradəsindən asılıdır. Ona görə də, bu kimi partiyalar normal bir partiyaya çevrilərək fəaliyyət göstərə bilmirlər. Belə partiyalar dağılmağa məhkumdur".

***Gülyana***



# Heyif, heyif, heyif...

Paltar çox vacib amildir, bunu bilirik. Lakin onu da bilirik ki, içindəkinə əsla təsiri yoxdur. İstəyirsən zər-ziba geyin, nəsənsə, osan. Dəyişməyəcəksən. İstəyirsən də ən ucuzlu, dəbsiz bir paltar geyin, yenə də dəyişməyəcək, əgər içindəki dəyərli insandırsa. İnsanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar deyiminin də elə bu mənada yarandığı sözsüzdür.

Lakin nə məsələdirsə, "nə geyinim?" dərdi həmişə insan övladının elə birinci dərdi-səri olub. Yox, deyəsən burada bir az səhv etdim. Çünki ta indi "nə geyinim?" dərdi yoxdur, səbəbi son zamanlar əksər insanın geyinməkdən çox soyunmağa üstünlük verməsidir. Məsələn, vaxt var idi ki, kişilər şalvar geyinərdilər əyinlərinə.

Bu məqamda "Kəlilə və Dimnə" kitabından belə bir hekayəti də xatırlamaq yerinə düşər. Çox qısa söyləyəcəyəm. Qədim zamanlarda belə bir hadisə olub ki, hansısa mahalda gecə qapı döyülərmiş, evin kişisi qapını açar, bununla da yoxa çıxarmış. Sabahı gün məlum olarmış ki, filankəs gecə yoxa çıxıb. Həmin qapı döymələr davam edir. Beləliklə günlərdən birində bir kişinin də qapısı döyülür və o, başqalarından fərqli olaraq evinə qayıdır, yoxa çıxanlardan olmur. Səbəb bu olur ki, o biri kişilər gecə qapıları döyüləndə qapıya paltarsız çıxırmışlar, lakin bu kişi qapının fasiləsiz döyülməsinə baxmayaraq paltarını geyinir ki, birdən olar, təcili hara isə çağırarlar, qoy hazırlıqlı olum. Bu yüksək keyfiyyəti onu ölümün pəncəsindən qurtarır. Həmin kişini aparıb özündən əvvəl qapıya çılpaq çıxan kişilərin hansı işgəncələrə məruz qaldıqlarını göstərib sonra evinə qaytarırlar.

Hə, deməli, paltarın belə önəmli çağları da olub. İndi kişilər var ki, nəinki gecə, günün günorta çağında paltarsız gəzirlər. Qısa şortlar, qolsuz köynəklər, vəssalam. Adı da ya dəbdir, ya da istidir...

Qaldı qadınlarımıza, Həzrəti Məhəmməd peyğəmbərin, qadın elə geyinməlidir ki, bədən cizgiləri bilinməsin, buyurmasına baxmayaraq indi əksər qız-qadınlarımız da kişilər kimi bir qarış paltarla kifayətlənirlər. Qısa ətək, qısa şort, şalvarda baldırdan başlayan iri kəsiklər, qısa köynəklər onların qarın-başını, qıç-qolunu qoyub bayırda.

Çıxdınmı küçəyə, vəssalam. Film başlayır. Əvvəllər belə filmlərə tamaşa etmək üçün gərək vaxt ayırardın, gedib bilet alardın, əziyyət çəkib nə qədər yol gedib kinoteatrda film izləyərdin. Lakin indi buna əsla ehtiyac yoxdur. Çıx küçəyə, başla tamaşaya.

Ey fani dünya. Sən bu günlərəmi qalacaqdın? Heyif səndən. Səni niyə bu günə saldılar? Kimlər saldı, niyə saldı, nə məqsədlə saldı, bilmirəm, amma heyif səndən. Heyif səndən keçən kişilərdən ki, qız-qadın yanında qıç-qollarını çırmayıb dəstəmaz almazdılar ki, ayıbdır. Heyif o kişilərə ki, çöldə ot biçəndə, əkin əkəndə istidən bişsələr də, köynəklərini çıxarmazdılar ki, birdən yanyörədə qız-gəlin olar. Heyif, heyif, heyif...

Heyif səndən ey dünya, sən nə üçün bu günlərə qaldın? Heyif səndən keçən qadınlara ki, ətəyi dabanında, köynəyinin qolu əlinin üstündə bitərdi, yad kişi görəndə yaşmağı gözlərinin altınadək qaldırardı. Heyif, heyif, heyif...

Zaman keçib, dünya dəyişib, müasirləşib. Çox heyif ki, biz insanlar da kişili-qadınlı çox dəyişmişik, çox da "müasirləşmişik"...

***Mətanət MƏMMƏDOVA***

FELYETON

# Mətbuat uğrunda “müharibə”

**Mətbuat Şurası özünün növbəti- VIII Qurultayına hazırlaşır. Qurultayda mətbuatlmızın vəziyyəti və bu sahədə tətbiqinə başlanan bəzi yeniliklər də müzakirə olunacaq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*



Elçin Bayramlı

İnternet medianın inkişafı və tam nəzarətsiz fəaliyyəti ilə bağlı bu sahədə xaos yarandığından qəbul olunmuş yeni Media qanunu çərçivəsində bəzi tənzimləyici tədbirlərin tətbiqi vacibdir.

Son günlərdə ölkəmizdə baş verən bəzi hadisələr zamanı media məkanında çoxdan bəri müzakirə etdiyimiz problemlər daha da kəskinləşdi. Məlum olduğu kimi, internet məkanındakı azadlıq və özbaşınalıq əksər hallarda mənfi fəsadlara gətirib çıxarır. Hər hansı bir ictimai və ya dövlət əhəmiyyətli hadisə zamanı şayiələr, dezinformasiyalar, məqsədli təxribat cəhdləri baş alıb gedir və bəzi qüvvələr ajiotaj yaratmağa çalışırlar. Nəticədə cəmiyyət yalan informasiya ilə yüklənir, sosial narazılıq yaranır, dövlət orqanlarına qarşı haqsız qınaqlar formalaşır.

Bundan başqa, sonradan bu xəbərlərin yalan olduğu ortaya çıxandan sonra cəmiyyətdə mediaya inam da itir. Halbuki, ənənəvi ciddi media belə biabırçılığa yol vermir, yoxlanmamış, təsdiqlənməmiş informasiya yaymır. Lakin oxucuların çoxu ciddi media ilə küçə saytlarını, sosial şəbəkə səhifələrini ayırd edə bilmir və hamısına media kimi baxır. Problem ondadır ki, bizdə media deyəndə bunlar hamısı birlikdə götürülür. Yəni, hansısa axmaq küçə saytı ağzına gələni yazırsa, onu yayırlar və deyirlər ki, mətbuatda belə yazılıb. Oxucuların əksəriyyəti ciddi media ilə küçə saytlarını, sosial şəbəkə səhifələrini seçə bilmir. Nəticədə, qurunun oduna yaş da yanır.

Bu bu vəziyyətin yaranmasının daha hansı səbəbləri var? İstənilən qəza vaxtı insanlar daha tez və çox informasiya tələb edir. Lakin bunu təmin etmək bəzi hallarda o qədər də asan olmur. Üstəlik, bizim bəzi dövlət orqanlarının mətbuat xidmətləri operativlik cəhətdən çox zəifdirlər. Onlar məlumat yayana kimi gec olur. Və şayiələr, dezinformasiyalar baş alıb gedir. Bu tip kritik situasiyalarda isə vəziyyət daha da pisləşir. Belə ki, bu saytlar, bloqlar və səhifələr ortalığı yalan məlumatla doldururlar.

Bu proses isə 2 kontekstdə nəzərdən keçirilməlidir. Bunların bir qrupu sadəcə özlərini, saytlarını tanıtdırmaq, İP qazanmaq və buna müvafiq olaraq reklamdan gəlir əldə etmək istəyirlər. Digər qrup isə bunu siyasi məqsədlərlə düşünülmüş və mütəşəkkil şəkildə edirlər. Onlar müxalifət partiyalarının və xarici dövlətlərin təsirində olan saytlardır.

Bu hallarla mübarizə aparmaq çətindir, çünki internetə nəzarət imkanları praktiki olaraq yoxdur. Bundan da müəyyən qüvvələr necə lazımdır istifadə edirlər. Hər hansı bir qəza və ya digər problem zamanı ajiotaj yaratmağa, iğtişaş törətməyə çalışırlar. Buna qarşı həm dövlət orqanları, həm Mətbuat Şurası və jurnalistlər, həm də cəmiyyətin sağlam qüvvələri mübarizə aparmalıdır.



Lakin qeyd etmək lazımdır ki, bu vəziyyətin yaranmasında informasiya gecikdirən orqanların da günahı böyükdür. Onlar baş verənlər barədə cəmiyyəti dərhal məlumatlandırmağa borcludurlar. Hadisə yerində (əgər bura xüsusi qorunan strateji əhəmiyyətli dövlət obyekti deyilsə) mətbuat konfransı keçirilməli, məsul şəxslər tam məlumat verməli, jurnalistlərə hadisə yerində rahat işləməyə imkan yaratmalıdırlar. Bu halda ciddi media düzgün məlumatları yayacaq və xüsusi məqsədlə buraxılan şayiələr, dezinformasiyalar nəticə verməyəcək.

Yuxarıda qeyd etdiyimiz hallarıdaha ciddi proseslər zamanı da müşahidə etmişik. 2-ci Qarabağ müharibəsi zamanı mediada baş verənlər hamının yadındadır. İnternetdə dövlət və hərbi sirlərdən, qoşunların dislokasiyasından, cəbhə xəttindəki vəziyyətdəki dəyişiklikdən tumuş itkilərə qədər hər sahədə dezinformasiyalar baş alıb gedirdi.

Bir sözlə ümumilli və dövlət əhəmiyyətli proseslər zamanı onlayn media və sosial şəbəkələr problem yaradır. Bu problemin qarşısını tam almaq mümkün olmasa da, müəyyən tədbirlərlə onun təsirini minimuma endirmək olar. Bu mexanizmin tapılması isə MEDİA-nın, Mətbuat Şurasının və digər jurnalist təşkilatlarının borcudur.

MEDİA bu istiqamətdə müəyyən addımlar atır, bu sahədə köklü islahatların aparılmasına çalışır. Burada ciddi medianın maddi-texniki bazasının, kadr bazasının möhkəmləndirilməsindən tutmuş, jurnlaistlərin peşəkarlığının artırılması, sosial vəziyyətinin yaxşılaşdırılmasınadək bir çox istiqamətlər var. Lakin tək MEDİA bunu bacara bilməz. Bu işdə jurnalist təşkilatları, media subyektləri özləri də maraqlı olmalı və dəstək verməlidirlər. Ona görə də, bu sahədə həm dövlət orqanı (Medianın İnkişafı Agentliyi), həm də bütün jurnlaistlərin və media subyektlərinin üzv olduğu ictimai təşkilatın (Mətbuat Şurası) birgə fəaliyyəti arzuolunandır.



Yeri gəlmişkən, hesab edirəm ki, MŞ-nin səaliyyətləri artırılmalı və nəzarət funksiyası yüksəldilməlidir. Mətbuat vasitələri özləri bunda maraqlı olmalıdırlar. Media prinsiplərini pozan, peşə etikasını arxa plana atanlara qarşı ilk növbədə jurnalistlər özləri mübariuzə aparmalıdırlar. Əks haqda bəzilərinin "sosial media" adlandırdığı küçə "mediası" ciddi mətbuatı sıradan çıxaracaq.

Bir sözlə hazırda yaranmış vəziyyət klassik mətbuatın bir növ ölüm qalım müharibəsidir. Həqiqi jurnalistlər ənənəvi medianın qorunması, xüsusən qəzetlərin yaşaması, mətbuatın cəmiyyətdə itirilmiş nüfuzunu qaytarmaq üçün müharibə aparır. Bu müharibədə qələbə qazanmağa məcburuq.

## BİLİRSİNİZMİ?



2011-ci ildə Yaponiyada baş verən 9 bal böyüklüyündəki zəlzələ səbəbilə dünyada 1 gün 1,6 mikro saniyə azalmışdır.

***

Koalalar ən tənbəl heyvan sayılırlar. Çünki onlar sutka ərzində 22 saat yatmaq iqtidarına malikdirlər.

***

Andrew Taylor adlı bir adam, bir il boyunca sadəcə kartof yeyib və bütün qan təhlilləri təmiz çıxmışdır.

***

Təyyarələrdə oturacaqlar adətən mavi və ya açıq rəngdə olur. Çünki bu rənglər insanların təlaşlanmasını zəiflədir.

***

Benzin, qaz, boya və kibrit qoxularını sevən insanların İQ səviyyəsi digər insanların İQ səviyyəsindən daha yüksəkdir.

***

Ernest Heminquey, onun atası, qardaşı, bacısı və qız nəvəsi həyatlarını sui-qəsdlə bitiriblər.

***

1975-ci ildə Vyetnam müharibəsində yetim qalmış körpələr təyyarə ilə Los-Ancelesə aparılır. Daha sonra bu uşaqlar Körfəz savaşında ABŞ ordusunun tərkibində İraqı işğal edirlər.

## AÇIQLANDI: "Yeni məktəbli formalarının alınması məcburi deyil"



2022-2023-cü tədris ili üçün yeni məktəbli formalarının alınması məcburi deyil. SİA xəbər verir ki, bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib. Qeyd olunub ki, yeni məktəbli forması ala bilməyən şagirdlər ötən tədris ilindəki geyimlərindən istifadə edə bilərlər:

"Məktəb rəhbərlərinin yeni məktəbli formalarının alınması ilə bağlı şagirdlər və ya valideynlər qarşısında hər hansı ciddi tələb qoyması yolverilməzdir. Yeni dərs ili üçün valideynlər yalnız könüllülük əsasında övladlarına yeni məktəbli formaları ala bilərlər. Yeni məktəbli forması almayan şagirdlər isə məktəbə əvvəlki məktəbli geyimində və ya sadəcə ağ köynək, qara (tünd göy) şalvarda (ətəkdə) gələ bilərlər.

Məktəb direktorlarının bütün bu məsələləri nəzərə alması və diqqət mərkəzində saxlaması zəruridir. Onu da qeyd edək ki, öz seçimi əsasında qərar vermiş valideynlərin yeni məktəbli formalarını "Bakı Tikiş Evi"ndən alması da mütləq deyil.

Məktəb rəhbərləri tərəfindən valideynlərə yeni məktəbli formasının alınması ilə bağlı hər hansı bir məcburi yönləndirmə olarsa, valideynlərdən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 146-1 Çağrı Mərkəzi vasitəsilə anonim olmadan məlumat verməlari xahiş olunur".



## Azərbaycanda idmana maraq hansı səviyyədədir?

Cüdo üzrə Azərbaycan milli komandası İtaliyanın Riççione şəhərində keçirilən Açıq Avropa turnirində 6 medal qazanıb. Yarışa yollanan 13 idmançıdan 1-i qızıl, 3-ü gümüş, 2-si bürünc medala sahib olub. Ümumilikdə Azərbaycanda cüdo idman növündə inkişaf varmı? Cüdo idman növü üzrə qələbələrimiz idmana nə dərəcədə töhfə verir? SİA mövzu ilə əlaqədar olaraq idman üzrə səlahiyyətli şəxslər arasında sorğu edib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov: "Ümumilikdə cüdo idman növü Azərbaycanda son dövrlərdə əvvəldə olduğu kimi inkişaf edir. Cüdo Federasiyasına yeni rəhbərliyin təyinatından sonra Federasiya Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Avropa Cüdo Federasiyası ilə sıx təmasdadı. Bir çox yeniliklərin: sistemin tətbiqi, Cüdo Federasiyasında beynəlxalq təcrübənin öyrənilməsi, yarışlara sistemli şəkildə hazırlıq, ölkə daxilində və xaricində təlim-məşq toplanışlarının keçirilməsi, əvəzedici heyətin, gənc nəslin inkişaf etdirilməsi, klubların saynının artırılması, regionlarda ustad dərslərinin keçirilməsi geniş vüsət alıb. Belə ki, Cüdo Federasiyası ölkədaxili Bakı şəhər idman yarışlarını, Bakı birinciliyini, klub yarışlarının sayını artırıb. Bu da idmançılarda təcrübənin artırılması baxımından böyük təkan verir. Həmçinin tibbi bərpa, dopinqlə mübarizə, idmançıların rəqəmsal göstəricilərinin öyrənilməsi nəticəsində məşqçi korpusuna hər bir idmançının üzərində çatışmayan cəhədlərini işləməyə əsas verib. Bütün bunların nəticəsi olaraq son dövrlər cüdo yığma komandamız istər Konyada keçirilən İslam Həmrəyliyi Oyunlarında, istərsə də, yeniyetmələrin cüdo festivalında, beynəlxalq yarışlarda davamlı nəticələr göstərir və hər biri çəki dərəcəsində birbirindən güclü idmançılarımız mövcuddur, eyni zamanda gənc nəsil böyüyür. Əminliklə deyə bilərik ki, ölkəmizdə keçirilməsi nəzərdə tutulan beynəlxlaq yarışlara ilin sonuna kimi hazırlıqlar gedir. Ümidvarıq ki, 2024-cü ildə Parisdə keçirilən Olimpiya Oyunlarına Azərbaycan güclü cüdo heyətilə qatılacaq. Bir daha idmançılarımızın nəticəsi ilə əlaqədar olaraq cüdo ailəsini təbrik edirəm".

Nərimanov rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov: "Cüdoçularımızın beynəlxalq yarışlarda uğur qazanması bizi qürurlandırır. Bu günlərdə İtaliyada keçirilən cüdo üzrə açıq Avropa turnirində Azərbaycan Milli komandasının uğurlu nəticə əldə etməsi bizi sevindirir. Ölkəmizin beynəlxalq aləmdə idman ölkəsi kimi tanınmasının təməlində dövlətimizin uğurlu idman siyasəti dayanır. İdmançılarımızın yarışlardan ölkəmizə qələbə ilə dönməsinin əsasında dövlətin idmana, idman mütəxəssislərinə göstərdiyi qayğının nəticəsidir. Ölkəmizdə günü-gündən idmanın maddi-texniki bazası yaxşılaşdırılır və bu da yeni-yeni idmançıların üzə çıxmasını təmin edir. Cənab Prezident İlham Əliyev Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında yüksək nəticələr əldə etmiş idmançılar ilə görüşdə qeyd etmişdir: "Bu gün Azərbaycanda idmana, xüsusi ilə də idmançılara olan münasibət əminəm ki, gəncləri, uşaqları da idman bölmələrinə gətirəcəkdir. Çünki idmanla məşğul olmaq üçün şərait var". İnanırıq ki, idmançılarımız bundan sonra da Cənab Prezidentin onlara göstərdiyi qayğını və etimadı yeni qələbələri ilə doğruldacaqlar.

Biz də öz növbəmizdə səlahiyyətləri miz daxilində, Azərbaycan idmanının uğur salnaməsini daha da zənginləşdirmək naminə əlimizdən gələni edəcəyik".

***B. Hüseynli***

## Qəbələ sakini özünü güllələdi...



**Qəbələ Rayon Polis Şöbəsinə rayon sakini Veysəl Rüstəmovun odlu silahdan açılan atəş nəticəsində xəsarət alması və iki ayaq barmağının amputasiya edilməsi ilə bağlı məlumat daxil olub.**

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan SİA-ya verilən məlumata görə, keçirilən tədbirlərlə həmin şəxsin odlu silahla ehtiyatsız davranması nəticəsində xəsarət aldığı müəyyən edilib və ondan qanunsuz olaraq saxladığı "İJ" markalı ov tüfəngi götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Rəngli içkilər insan orqanizmi üçün nə dərəcədə zərərlidir?



"Bu gün bir çox qida məhsullarında rəngləndiricilərdən istifadə olunur. Bu, təkcə içkilərə deyil, bütün məhsullara aiddir. Rəngləndiricilərin 2 növü var: Süni və təbii. Təbii rəngləndiricilər əgər qidalara, eyni zamanda, içkilərə qatılıbsa, bunun zərərləri çox olmur". Bu fikirləri SİA-ya açıqlamasında qida üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.

Qida mütəxəssisinin sözlərinə görə, təbii rəngləndiricilər adından da, göründüyü kimi təbii qidalardan, yəni təbiət və heyvan mənşəli, mineral qaynaqlardan əldə olunan piqmentlər nəticəsində alır: "Bu rənglər də qidalara qatılırsa, müəyyən miqdarda qəbul edilməsi insan orqanizminə o dərəcədə zərər vermir. Misal olaraq, bitkilərin tərkibindəki lekopen maddəsi qırmızı rəng verir və s. Lakin bunları əldə etmək həddindən artıq zəhmətli və müəyyən maddi vəsait tələb etdiyinə görə, bir çox hallarda insanlar istehsal vasitələrində süni rənglərdən istifadə edirlər. Bu kimi rəngləndiricilər də daha çox kimyəvi maddələrdən alınır. Kimyəvi rəngləndiricilər böyük bir məhsulu tez bir zamanda rənginin dəyişməsinə səbəb olur. Süni rəngləndiricilər də özünə görə bir neçə yerə bölünür. Bunlar da heç bir halda orqanizm üçün məsləhətli deyil. Həmin maddələrdən müəyyən miqdarda istifadə etdikdə orqanizmimizdəki funksiyaların pozulmasına gətirib çıxarır. Çünki bu cür rəngləndiricilər kimyəvi maddələrdən olduğu üçün həzm olunmur, eyni zamanda da, orqanizmdən xaric olma prosesi də müəyyən çətinlik yaradır. Bu da toksin və yığıntılar şəklində qalır. Bu yığıntılar da mədə divarı, qida borusu, dili üzərində dad reseptorlarının dağılmasına, qara ciyərdə toplanaraq qana qarışmasına da səbəb olur ki, bu da orqanizmin yavaş-yavaş zəhərlənməsinə gətirib çıxarır. Bəzən də böyrək çatışmazlığına səbəb olur".

***Banuçiçək***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**